Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

16 MART 2018 21 [1511]

# Mədəniyyət

www.medeniyyet.az




## Sağlamlıq və turizm

**Naftalanda keçirilən iclasda ölkəmizdə turizmin bu sahəsinin inkişaf perspektivləri müzakirə edildi**

3

8

## Beynəlxalq muğam müsabiqəsinin qalibləri elan olundu

Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalının son zəngulələri vuruldu. Mərasimdə festival çərçivəsində keçirilmiş müsabiqənin qalibləri də elan olundu. Solo muğam ifaçılığı üzrə Elsevər Muradov (Azərbaycan) və İlyos Arabov (Özbəkistan) birinci, Sardor Soliyev (Tacikistan) və Pərviz Qasımov (Azərbaycan) ikinci mükafata layiq görüldülər.






## "Yurdumuza bahar gəlir"

*Uşaq rəsmlərinin sərgisi*

Martın 15-də Xətai Sənət Mərkəzində "Yurdumuza bahar gəlir" adlı respublika uşaq rəsm müsabiqəsinin sərgisi açıldı. 15 yaşa qədər uşaq və yeniyetmələr arasında keçirilən bu yarışmada məqsəd gənclərdə milli adət-ənənələrimizə hörmət və Novruz bayramının daha böyük anlamda dərk olunması, bədii şəkildə ifadə edilməsidir. Müsabiqəyə 750-yə yaxın uşaq 1600-dən çox əsərlə qatılıb. Yekun sərgidə 140-dək uşağın əl işləri nümayiş olunur.

2

## Paytaxt teatrlarının Novruz xonçası

10



Novruz tətili günləri tez-tez görə bilmədiyin dostlar-qohumlarla ünsiyyət fürsəti, qısamüddətli səyahətə çıxmaq imkanı vəd etsə də, həm də çox uzağa getmədən mədəni istirahət etmək, iş çoxluğundan təxirə salınan uşaqlarla vaxt keçirmək, ailəvi harasa çıxmaq üçün də şansdır. Elədə sizi "Novruzda nəyə baxaq?" adlı paytaxt teatrlarının bayram repertuarına məlumatlandırıcı ekskursa dəvət edirik.

# İnklüziv cəmiyyətlərdə fərqliliklərin aradan qaldırılması

## VI Qlobal Bakı Forumu çərçivəsində kitab sammiti təşkil olunacaq

**Martın 15-də Azərbaycanın paytaxtında "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumu işə başlayıb.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər. Forumda, həmçinin Albaniya Prezidenti İlir Meta, Makedoniya Prezidenti George İvanov, Moldova Prezidenti İqor Dodon, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin Baş naziri Binəli Yıldırım, Fələstinin Baş nazirinin müavini Ziad Abu Amr, Rumıniya Baş nazirinin müavini Ana Birçall iştirak edirlər.

Əvvəlcə birgə foto çəkdirilib.

Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açıb.

Prezident İlham Əliyev tədbirdə nitq söyləyib.

Artıq 6-cı dəfə keçirilən Qlobal Bakı Forumunun nüfuzlu beynəlxalq platformaya çevrildiyini vurğulayan dövlət başçısı son illərdə ölkəmizin mötəbər beynəlxalq tədbirlərin məkanı kimi tanındığını vurğulayıb. Prezident bildirib ki, bu tədbirlərdə müxtəlif millətlərin nümayəndələri, müxtəlif fikirli insanlar bir araya gəlir. 2008-ci ildə əsası qoyulan mədəniyyətlərarası dialoqa dair Bakı Prosesinin əhəmiyyətini xüsusi qeyd edən dövlət başçısı deyib ki, Bakı Prosesi çərçivəsində xalqlar və dövlətlər arasında anlaşma yaranması üçün böyük işlər görülür. Səylərimiz sabitliyin, təhlükəsizliyin, qarşılıqlı anlaşmanın gücləndirilməsinə yönəlib.

Azərbaycanın müstəqillik dövründə keçdiyi inkişaf yolundan bəhs edən Prezident bildirib ki, ölkə iqtisadi cəhətdən müstəqil olmasa, siyasi baxımdan da müstəqil ola bilməz: "Yürütdüyümüz siyasət Azərbaycan xalqının maraqlarına söykənir. Son 10 ildə Azərbaycan iqtisadiyyatı 3,5 dəfə artıb. Bu, çox yüksək göstəricidir. Davos İqtisadi Forumunun rəqabət qabiliyyətinə görə hesabatına əsasən Azərbaycan 35-ci yerdədir. Davos İqtisadi Forumunun hesabatına əsasən Azərbaycan inklüziv inkişaf seqmentində isə dünyada 3-cü yerdədir".

Qeyd olunub ki, Azərbaycan adambaşına düşən sərmayələrə görə ön sıralardadır. Son 10 ildə Azərbaycana 230 milyard dollar sərmayə yatırılıb. Azərbaycan eyni zamanda region ölkələrinə də sərmayə yatırır.

Ölkəmizdəki tolerantlıq mühitindən söz açan dövlət başçısı qeyd edib ki, Azərbaycan bu sahədə dünyaya nümunə göstərir. Prezident əmin olduğunu bildirib ki, Forumda beynəlxalq gündəliyin aktual məsələləri müzakirə ediləcək, sabitliyi təmin etmək üçün təşəbbüslər irəli sürüləcək.

Sonra Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım çıxış edib.

İtaliya Prezidenti Sergio Mattarellanın, Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin, Roma Papası Fransiskin, Rumıniya Baş naziri xanım Viorika Dansilanın, BMT-nin baş katibi Antonio Quterreşin müraciətləri oxunub.

Daha sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra-Vike Freyberqa çıxış edib.

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ideya və dəyərlərinin təbliğində xüsusi fəallıqları ilə seçilən şəxslərə Mərkəzin Qəyyumlar Şurasının qərarı ilə Nizami Gəncəvi Beynəlxalq mükafatları təqdim olunub.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təhsilin və mədəniyyətin inkişafında xidmətlərinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı ilə təltif edilib. Birinci xanım Mehriban Əliyeva çıxış edərək bu yüksək mükafatla təltif olunmasına görə minnətdarlığını bildirib.

Beynəlxalq sülhün və sabitliyin möhkəmlənməsində xidmətlərinə görə Nizami Gəncəvi Beynəlxalq mükafatı ilə İordaniya Kralı II Abdullahın təltif olunduğu elan edilib və mükafat Kral ailəsinin üzvü Rad Bin Al Huseynə təqdim olunub.

Humanitar və mədəni dəyərlərin təbliğində töhfələrinə görə ELPİDA təşkilatının prezidenti, UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis Nizami Gəncəvi Beynəlxalq mükafatı ilə təltif olunub.

Açılış mərasiminə yekun vuran Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin tədbirdə iştirakına görə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Qeyd edək ki, üç gün davam edəcək Foruma 50-dən çox ölkədən 500-dən artıq nümayəndə, o cümlədən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan sabiq dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi xadimlər, alimlər qatılıblar.

Forum çərçivəsində martın 18-19-da VII Beynəlxalq Kitab Sammiti təşkil olunacaq. ABŞ Konqres Kitabxanasının və Misirin İsgəndəriyyə Kitabxanasının birgə təşəbbüsü ilə keçiriləcək sammitdə milli inkişafda, mədəni irsin qorunmasında və ötürülməsində, gələcəyin formalaşmasında kitabın əhəmiyyəti, eləcə də milli kitabxanaların rolu, kitabxanaların gələcəyi mövzuları müzakirə olunacaq.

---

### Allah rəhmət eləsin

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Mübariz Həmidov və teatrın kollektivi Azərbaycan Dövlət Musiqili Teatrının direktoru Əliqismət Lalayevə qardaşı

**Məmmədəli Lalayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

* * *

Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi sektorunun kollektivi Qusar rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Zahir Mustafayevə əzizi

**Edik Ağamətovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

* * *

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatrşünaslıq kafedrasının müdiri Aydın Talıbzadə və C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova Dövlət Musiqili Teatrının direktoru Əliqismət Lalayevə qardaşı

**Məmmədəli Lalayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

"Mədəniyyət" qəzetinin kollektivi Azərbaycan Dövlət Musiqili Teatrının direktoru Əliqismət Lalayevə qardaşı

**Məmmədəli Lalayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

# "Yurdumuza bahar gəlir" sərgisinin açılışı oldu

**Martın 15-də Xətai Sənət Mərkəzində "Yurdumuza bahar gəlir" adlı respublika uşaq rəsm müsabiqəsinin sərgisi açıldı.**



Müsabiqə "Azərbaycan Xalq Cümhuriyyəti ili" çərçivəsində Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilib.

Tədbiri giriş sözüylə Mədəniyyət və Turizm Nazirliyi Təsviri və dekorativ sənət sektorunun müdiri Qalib Qasımov açaraq bildirdi ki, 15 yaşa qədər uşaq və yeniyetmələr arasında keçirilən bu yarışmada məqsəd gənclərdə milli adət-ənənələrimizə hörmət və Novruz bayramının daha böyük anlamda dərk olunması, bədii şəkildə ifadə edilməsidir. Müsabiqəyə 750-yə yaxın uşaq 1600-dən çox əsərlə qatılıb. Yekun sərgidə 140-dək uşağın əl işləri nümayiş olunur.

Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov sərgiyə işləri seçilmiş iştirakçıları təbrik etdi, onların bədii zövqünün formalaşmasında müsabiqələrin yaradıcı önəmini vurğuladı. O, uşaqların xəyal dünyasının genişliyini, gözəlliyini yüksək dəyərləndirdi.

Əməkdar rəssam Rəfael Muradov sərgilənən hər bir əsərdə uşaq qəlbinin döyüntülərini, ifadə səmimiyyətinin duyulduğunu qeyd etdi.

Sonda əsərləri sərgilənən iştirakçılara, eləcə də onların təmsil olunduqları kollektivlərə diplomlar təqdim edildi.

**S.Qaliboğlu**



**Martın 15-də Naftalan şəhərindəki Heydər Əliyev Mərkəzində mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sədrliyi ilə ölkəmizdə sağlamlıq turizminin inkişaf etdirilməsinə həsr olunmuş iclas keçirildi. Tədbirdə Turizm Şurasının Sağlamlıq turizmi üzrə İşçi qrupunun üzvləri, ölkənin sağlamlıq turizmi sektorunun nümayəndələri iştirak edirdi.**

# Sağlamlıq və turizm - mövcud imkanlardan necə istifadə etməli?

## Naftalanda keçirilən iclasda ölkəmizdə turizmin bu sahəsinin inkişaf perspektivləri müzakirə olundu

İclasda giriş sözü söyləyən Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov şəhərin turizm potensialı haqqında məlumat verdi. Bildirdi ki, sağlamlıq turizmi sahəsində geniş tanınan Naftalan nefti ilə müalicə son illər daha da məşhurlaşmaqdadır. Bu da şəhərə gələn xarici turistlərin sayının ildən-ilə artmasına öz təsirini göstərir. Hazırda Naftalanda üçü 5 ulduzlu olmaqla 10 sanatoriya fəaliyyət göstərir. 2017-ci ildə şəhərə 36 minə yaxın turist gəlib ki, onların da 7 mindən çoxu dünyanın 62 ölkəsinin vətəndaşı olub.



Tədbirdə geniş məruzə ilə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev son illər ölkəmizdə turizm sənayesinin inkişafı istiqamətində görülən işlərdən danışdı. Vurğuladı ki, ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektoru sahəsində əsas yerlərdən birini tutan turizm sənayesi daima Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Qeyd olundu ki, son bir neçə ildə turizm sənayesində həyata keçirilən tədbirlər, o cümlədən ölkə başçısının 1 sentyabr 2016-cı il tarixli "Turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı, 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunan "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası bu sahədə yeni mərhələnin başlanğıcını qoymuş oldu. 2017-ci ildə Azərbaycan Respublikası Turizm Şurasının fəaliyyətə başlaması da bu sahədə aidiyyəti qurumların işinin əlaqələndirilməsi baxımından xüsusi önəm kəsb edir.

**Strateji Yol Xəritəsinin istiqamətlərindən biri**

Əbülfəs Qarayev ölkəmizdə, digər turizm növləri kimi, sağlamlıq turizminin də böyük potensialının olduğunu bildirərək qeyd etdi ki, bu turizm növünün inkişaf etdirilməsinə Strateji Yol Xəritəsində də xüsusi yer ayrılıb. Sənədin müvafiq bəndlərinin icrası üçün Turizm Şurası tərkibində Sağlamlıq turizmi üzrə İşçi qrupu (eləcə də Naftalan üzrə neft-tədqiqat qrupu) yaradılıb. Turizm Şurasının qərarına əsasən, Mədəniyyət və Turizm Nazirliyinin, AMEA-nın akademik Yusuf Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun, akademik A.Qarayev adına Fiziologiya İnstitutunun, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort" Səhmdar Cəmiyyətinin, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə nazirliklərinin, Sahibkarlığa Kömək Milli Fondunun, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun, Naftalan Şəhər İcra Hakimiyyətinin, Milli Turizm Təbliğat Bürosunun və Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının nümayəndələrindən ibarət İşçi qrupunun tərkibi təsdiq olunub.

Əbülfəs Qarayev vurğuladı ki, Azərbaycanda sağlamlıq turizminin, xüsusilə Naftalan nefti ilə müalicə üsullarının zəngin ənənələri var: "Hazırda ölkəmizdə sağlamlıq turizmi yeni inkişaf dövrünü yaşayır. Naftalanda, Qalaaltıda, Qəbələdə, Naxçıvan və Lənkəranda



yeni infrastruktur yaradılıb. Bu istiqamətdə fəaliyyət, eyni zamanda Xızı-Xaçmaz, Quba və Qusar rayonları ərazisində turizm rekreasiya zonalarının yaradılması istiqamətində işlər davam etdirilir".

Nazir həmin turizm mərkəzlərində göstərilən xidmətlərin keyfiyyət və kəmiyyətinin artırılmasının vacibliyini qeyd etdi. Bildirdi ki, yaxın şəhər və rayonlara ekskursiyaların təşkili, turistlərin asudə vaxtının səmərəli keçirilməsi də xüsusi önəm daşıyır. Bu, turizm müəssisələrinə əlavə gəlir gətirməklə yanaşı, həm də ölkəmizin mədəniyyətinin və tarixi məkanlarının təbliğinə xidmət etmiş olacaq.

**Üçillik fəaliyyət planının layihəsi hazırlanıb**

Diqqətə çatdırıldı ki, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2018-2020-ci illər üçün "Sağlamlıq turizminin inkişafına dair Fəaliyyət planı"nın layihəsi hazırlanıb. Azərbaycan Turizm Şurasının müvafiq qərarına əsasən, ilkin mərhələdə beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycanın sağlamlıq turizmi imkanlarının iqtisadi səmərəliliyi barədə təhlillərin hazırlanması, daha sonra isə Fəaliyyət planının üzərində iş aparılması nəzərdə tutulur.

Qalaaltı, Naftalan və Duzdağda yenidənqurma işlərindən danışan nazir əlavə etdi ki, Naftalan neftinin beynəlxalq sertifikatlaşdırmadan keçməsi prosesinin sürətləndirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Eləcə də Qalaaltı və Duzdağ üzrə müvafiq beynəlxalq sertifikatların əldə olunması istiqamətində işlər həyata keçirilir. Beynəlxalq sertifikatlar ölkənin bu sahədə imkanlarının daha geniş miqyasda tanınmasına və xaricdən turist axınına təkan verəcək.

Bildirildi ki, Avropa Tarixi Termal Şəhərlər Assosiasiyanın (EHTTA) "Termal Şəhərlər" beynəlxalq mədəni marşrutu çərçivəsində Qalaaltı kurortu 2016-cı ildə bu beynəlxalq təşkilata bərabərhüquqlu üzv seçilib. 2018-ci ilin may ayında EHTTA-nın növbəti Baş assambleyası Qalaaltıda keçiriləcək.

AMEA-nın akademik Yusuf Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov Naftalan neftinin institutda tədqiq olunması, nəticələri və müalicə əhəmiyyəti barədə çıxış etdi.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort" Səhmdar Cəmiyyətinin prezidenti Abil Ağasiyev Azərbaycanın sağlamlıq turizmi imkanları, o cümlədən Qalaaltı, Naftalan və Duzdağın potensialı barədə geniş məruzə etdi.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev ölkəmizin bu sahədə imkanlarının təşviq olunması, beynəlxalq aləmdə tanıdılması ilə bağlı görülən işlər haqqında danışdı.

Tədbir daha sonra fikir mübadiləsi ilə davam etdi, müxtəlif təkliflər səsləndirildi.

**Fariz Hüseynov**

# Pilot layihə çərçivəsində tədbirlər



Mədəniyyət və Turizm Nazirliyinin Qəbələ rayonu üzrə pilot layihəsi çərçivəsində Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəz rayonun mədəniyyət müəssisələrinin tanıdılması, əhalinin maarifləndirilməsi, oxucu kontingentinin genişləndirilməsinə yönəlmiş silsilə tədbirləri davam etdirir.

Layihə çərçivəsində "Gələcəyin üçün oxu" şüarı altında martın 14-də rayonun Bum qəsəbə orta məktəbində görüş, martın 15-də isə Tikanlı kənd orta məktəbində "Azərbaycan mədəniyyəti" mövzusunda açıq dərs keçirilib.

Tədbirlərdə Elmi-Metodik Mərkəzin direktoru Asif Usubəliyev, İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsinin Qəbələ rayonu üzrə nümayəndəsi Nargilə Qafarova, rayonun mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Hər iki məktəbdə şagirdlər arasında viktorina keçirilib, məktəblərə kitablar və "Qarabağ silsiləsi" layihəsindən "Qarabağ mifləri" toplusu hədiyyə edilib.

Mərkəzin əməkdaşları Məzahir Qarayev, Nurəddin Babazadə, Elnarə Hacıyeva və Ceyhun Əhmədov nazirliyin təşəbbüsü ilə icra olunan layihə haqqında məlumat veriblər.

# Uşaq musiqi və incəsənət məktəblərində ixtisaslaşmış təlimlər

Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin Bədii təhsil şöbəsi tərəfindən martın 14-dən Bərdə rayonundakı uşaq musiqi və incəsənət məktəblərində ixtisaslaşmış təlimlər keçirilir.

Elmi-Metodik Mərkəzdə son iki ildə uşaq musiqi və incəsənət məktəblərinin fəaliyyəti ilə bağlı 20 çeşiddən artıq metodiki vəsait hazırlanaraq region idarələrinə paylanılıb.

Yeni vəsaitlərdə göstərilən proqram tələblərinin yerinə yetirilməsinə metodiki köməklik göstərilməsi məqsədilə Bərdə rayonunun uşaq musiqi və incəsənət məktəblərində Elmi-Metodik Mərkəzin Bədii təhsil şöbəsinin müdiri Natiq Mustafayev və şöbənin metodisti Zəbulla Quliyevin iştirakı ilə muğam, fortepiano və nəzəri fənlər üzrə ixtisaslaşmış təlimlər aparılır.

# Mədəniyyət və turizm naziri Naftalanda vətəndaşlarla görüşüb

**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri tərəfindən şəhər və rayonlarda əhalinin qəbulu davam edir. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü martın 15-də Naftalan şəhərində gerçəkləşib.**



Nazir Naftalan şəhərindəki Heydər Əliyev Mərkəzində Gəncə və Naftalan şəhərləri, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayonlarının sakinlərini qəbul edib.

Görüşdən öncə nazir ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad edib.

Qəbulda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri səslənib.

Gəncə sakinləri şəhərdə regionlararası “Mədəniyyət festivalı” layihəsinin və “Milli geyim mədəniyyətinin cəmiyyət arasında formalaşdırılması və təbliği” layihəsinin həyata keçirilməsi, “Azərbaycan musiqisi” adlı müsabiqənin, “Avropa Gənclər Paytaxtları və qardaşlaşmış şəhərlərin mədəniyyət festivalı”nın təşkili və digər məsələlərlə bağlı xahişlərini nazirə çatdırıblar.

Naftalandan qəbula yazılan vətəndaşların müraciətləri şəhər ərazisində Mədəniyyət mərkəzinin tikilməsi, Uşaq musiqi məktəbinə Azərbaycan və xarici ölkə bəstəkarlarının portretlərinin, yeni not nümunələrinin və qısametrajlı filmlərin nümayişi üçün proyektorun verilməsi barədə olub.

Samux sakinləri rayonda arxeoloji tədqiqatların aparılması, Heydər Əliyev Mərkəzinin nəzdində təbii resursların qorunması mərkəzinin açılması, həmçinin mərkəzdə qədim əşyalara aid guşənin yaradılması və digər məsələlərlə bağlı müraciət ediblər.

Goranboy sakinlərinin xahişləri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası tərəfindən Borsunlu kəndində Gəsi adlanan ərazidə IX-XIII əsrlərə aid yaşayış sahəsində üzə çıxarılan maddi nümunələrin dövlət qeydiyyatına alınması və bu məkanın ölkə əhəmiyyətli turizm marşrutuna daxil edilməsi, 28 May - Respublika Günü münasibəti ilə təşkil olunacaq bayram konsertində Bakıdan incəsənət ustalarının iştirakına köməklik göstərilməsi və başqa məsələlər barədə olub.

Kəlbəcər sakinləri Uşaq incəsənət məktəbində nağara sinfinin açılması, rayonun folklor kollektivinin xarici ölkələrə qastrol səfərlərinin təşkilinə dəstək verilməsi ilə bağlı nazirə müraciət ediblər.

Xocalı sakinləri rayon Mədəniyyət evində əsərlərin səhnələşdirilməsi üçün təcrübəli rejissor və aktyorların metodiki köməklik göstərməsi, kitabxana işçilərinin mütəmadi olaraq regionlararası əməkdaşlıq görüşlərinin keçirilməsi, Yaloba kənd Tarix-diyarşünaslıq muzeyində bədii tərtibat işlərinin aparılmasına köməklik göstərilməsini xahiş ediblər.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

**Fariz**

# Görkəmli sənətkarın xatirəsi yad edilib

**Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin təşkilatçılığı ilə Suraxanı rayonundakı Heydər Əliyev Mərkəzində Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Həsənağa Turabovun (1938-2003) 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Tədbirin aparıcısı Tərlan Akcay sənətkarın çoxsaylı tamaşalarda və ekran əsərlərində böyük ustalıqla canlandırdığı mürəkkəb xarakterli obrazlardan, kino və teatr tariximizdə qoyduğu izlərdən danışıb.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Akademik Milli Dram Teatrının bədii rəhbəri-direktoru, Xalq artisti Azərpaşa Nemətov, xalq artistləri - aktyor Hacı İsmayılov, kinorejissor Eldar Quliyev, teatr rejissoru Mərahim Fərzəlibəyov, əməkdar incəsənət xadimləri - kino tarixçisi Aydın Kazımzadə, aktyor və rejissor Əbdül Mahmudbəyov, teatr rejissoru Əsgər Əsgərov çıxış edərək Həsənağa Turabovun teatrda, milli kinomuzda yaratdığı rəngarəng obrazlardan, pedaqoji fəaliyyətindən danışıblar. Qeyd olunub ki, sənətkar fitri istedadı sayəsində səhnəyə yeniliklər gətirməklə özünəməxsus üslubunu yaradıb və milli mədəniyyət salnaməsinə parlaq səhifələr yazıb.

Tədbirdə H.Turabovun çəkildiyi “Dərviş Parisi partladır” və “Dantenin yubileyi” filmlərindən fraqmentlər göstərilib.

Sonda sənətkarın ailəsi adından çıxış edən qızı Sevinc Turabova tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.



# “Yurdumuza yaz gəlir”

Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsinin təşəbbüsü, Ağstafa rayon MKS və rayon Tarix-diyarşünaslıq muzeyinin təşkilatçılığı ilə martın 14-də “Yurdumuza yaz gəlir” adlı tədbir keçirilib. MKS-nin direktoru S.Nağıyeva Novruz bayramı münasibətilə rayon sakinlərini təbrik edərək hər kəsə ən xoş arzularını çatdırıb.

Regional idarənin rəisi Ramiz Quliyev çıxışında qeyd edib ki, Novruz xalqımızın minilliklərdən gələn mədəni və mənəvi sərvətidir. Müəyyən dövrlərdə xarici, yad təsirlər Azərbaycan xalqının milli dəyərlərinə sadiqliyini əlindən ala bilməyib, xalqımız özünün milli dəyərlərini qoruyub və inkişaf etdirib.

Tədbirdə bayram tonqalı yandırılıb, milli geyimli oğlan və qızlar “Yallı” rəqsini ifa ediblər. Novruzun personajları olan Kosa və Keçəlin iştirakı ilə oyunlar maraqla qarşılanıb.

# Cümhuriyyətin 100 illiyi ilə bağlı maarifləndirici tədbirlər

**Prezident yanında Bilik Fondu Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı maarifləndirici tədbirləri davam etdirir. Martın 15-də beş məkanda tədbirlər keçirilib.**

Salyan rayon Peşə liseyində gerçəkləşən tədbirdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Xuraman Hümmətova “Cümhuriyyət dövründə ədəbiyyat” mövzusunda mühazirə ilə çıxış edib. Məruzəçi M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Hüseynzadə, Ə.Cavad və A.İldırımın həyat və fəaliyyətləri barədə ətraflı danışıb.

Şabran rayonu Gəndov kənd klubunda “Şabran-Quba bölgəsində bolşevik və erməni-daşnak dəstələrinə qarşı mübarizə” mövzusunda mühazirə təşkil olunub.

Fondun rayon nümayəndəsi, T.Abbasov adına 1 nömrəli tam orta məktəbin direktoru Fikrət Şamxalov mövzu üzrə çıxış edib.

Bakı şəhərinin Binəqədi rayonunda yerləşən ictimai iaşə və xidmət üzrə Peşə təhsili mərkəzində keçirilən maarifləndirici tədbirdə “Şərq” qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Akif Aşırlının “Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatında azərbaycanlıların soyqırımının əks olunması” mövzusunda mühazirəsi dinlənilib.

Xətai rayonunda yerləşən Peşə təhsili mərkəzində isə BDU-nun dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Hüseyn Məmmədov “Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının tarixi əhəmiyyəti” mövzusunda mühazirə söyləyib.

“Üzeyir Hacıbəyli və Azərbaycan Xalq Cümhuriyyəti” mövzusunda tədbir isə böyük bəstəkarın ev-muzeyində gerçəkləşib. Fondun lektorlar qrupunun üzvü, professor Solmaz Amanova bəstəkarın Cümhuriyyət dövründə fəaliyyətindən danışıb.



# Almaniyanın turizm bazarı ölkəmiz üçün Avropada prioritet istiqamətlərdəndir

## Gələcəkdə bu ölkədə turizm imkanlarımızın təbliği məqsədilə bir neçə layihənin həyata keçirilməsi planlaşdırılır

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev martın 14-də Azərbaycanın Almaniyadakı fəxri konsulu Otto Hauserin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazir qonaqları salamlayaraq Almaniya ilə Azərbaycan arasında turist mübadiləsindən, qarşılıqlı turist axınının artırılmasının vacibliyindən söz açıb. Qeyd edib ki, ölkəmizə turistlərin cəlb olunması, turizm potensialının təbliği məqsədilə 2014-cü ildən nazirliyin Almaniyada turizm nümayəndəliyi fəaliyyət göstərir.

Əbülfəs Qarayev Almaniyanın turizm bazarının ölkəmiz üçün Avropada prioritet istiqamətlərdən biri olduğunu, Berlində keçirilən "İTB Berlin" sərgisində ölkəmizin hər il iştirak etdiyini, 2013-cü ildə sərginin rəsmi tərəfdaşı olduğunu diqqətə çatdırıb. Bildirib ki, sərginin təşkilat komitəsi ilə mütəmadi danışıqlar aparılır və gələcəkdə ölkəmizin turizm potensialının təbliği məqsədilə bir neçə layihənin həyata keçirilməsi planlaşdırılır.

Həmçinin, dövlət tərəfindən elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılmasının turistlərin sayının artımında mühüm rol oynadığı vurğulanıb.

Fəxri konsul Otto Hauser Azərbaycanın turizm potensialının təbliği məqsədilə Almaniyada keçirilən sərgilərdə iştirakının əhəmiyyətini qeyd edib. O, Ştutqart şəhərində keçirilən "CMT" beynəlxalq turizm sərgisində gələcək illərdə ölkəmizi rəsmi tərəfdaş qismində iştiraka dəvət edib və bildirib ki, bu, turist artımına müsbət təsir göstərə bilər. Fəxri konsul bu il "CMT" sərgisində 280 mindən çox adamın iştirak etdiyini və iştirakçılar arasında keçirilmiş sorğuya əsasən ölkəmizə marağın yüksək olduğunu deyib.

Nazir vurğulayıb ki, Azərbaycan Almaniyadan turistlərin cəlb olunmasında maraqlıdır və ölkəmizdə bunun üçün turizmin müxtəlif növləri inkişaf etməkdədir. Eyni zamanda qeyd olunub ki, almaniyalı turistlərin Azərbaycana səfəri üçün ən başlıca səbəblərdən biri kimi ölkəmizdə vaxtilə mövcud olmuş alman yaşayış məskənləri, bununla bağlı qorunub saxlanılan tarixi irsdir.

Sonda qonaq səmimi qəbula görə minnətdarlığını ifadə edib.

# Səid Rüstəmov yaradıcılığı "Oxu tar"ın sədalarında

**Martın 14-də Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Dövlət mükafatı laureatı, Xalq artisti Səid Rüstəmovun mahnılarından ibarət "Oxu, tar" adlı konsert proqramı təqdim edildi.**




Konsertdə bəstəkarın bir-birindən gözəl mahnıları səsləndi. İfaçıları Azərbaycan Televiziyası və Radiosunun Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri (dirijor, Əməkdar artist Faiq Sadıqov) və Azərbaycan Televiziya və Radiosunun Niyazi adına Simfonik Orkestri (dirijor, Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov) müşayiət edirdi.

Səid Rüstəmovun (1907-1983) mahnılarını dinləyən hər bir kəs bu əsərlərdəki həzinliyi və səmimiliyi hiss edir. "Oxu, tar" adlı konsert proqramı da bu həzinlik və səmimilik notları üzərində qurulmuşdu. Bəstəkarın həyat və yaradıcılığının müəyyən məqamlarını əks etdirən video-çarxdan sonra tamaşaçılara Səid Rüstəmovun ömür yolu haqqında məlumat təqdim edildi.

Qeyd olundu ki, gələcəyin bəstəkarı 20-ci illərdə Musiqi texnikumunun tar sinfini bitirdikdən sonra tar müəllimi kimi fəaliyyət göstərir və ilk əsəri olan "Bayatıkürd" fantaziyasını bu illərdə yazır. Beləliklə, Azərbaycan bəstəkarlıq məktəbində öz dəst-xətti ilə seçilən bir gəncin sənət yolu başlanır. Bəstəkarın mahnıları ilə yanaşı, teatr tamaşaları üçün musiqiləri, yazdığı musiqili komediyalarda xalq tərəfindən sevilir. Konsertdə istənilən yaş qrupundan olan tamaşaçıların olması bəstəkarın mahnılarını dinləyən hər kəsin bu nəğmələrin sehrinə düşməsinə işarə idi.

Konsertdə Xalq artisti, tarzən Ramiz Quliyev, əməkdar artistlər İlqar Muradov, Lalə Məmmədova, Anar Şuşalı, Rəşad İlyasov, Teyyub Aslanov, Zöhrə Abdullayeva, Firuz Səxavət, Fərid Əliyev, Ehtiram Hüseynov, tanınmış ifaçılar Nadir Qafarzadə, Sərxan Bünyadzadə, Xəyyam Nisanov, Aytən Məhərrəmova, Nurlan Növrəsli, Arslan Növrəsli, Arzu Əliyeva, İlahə Əfəndiyeva, Sahib İbrahimov, Çinarə Şirin, Taleh Yəhyayev, Günay İmamverdiyeva, aşıq Samirə, aşıq Əli və başqalarının çıxışları maraqla qarşılandı.

**Lalə Azəri**




## Azərbaycanlı bəstəkarın əsəri beynəlxalq festivalda səsləndiriləcək

Noyabrın 28-dən dekabrın 2-dək Moskva Dövlət Filarmoniyasının P.Çaykovski adına konsert zalında "Başqa məkan" VI Beynəlxalq Aktual Musiqi Festivalı keçiriləcək.

Moskva filarmoniyasının saytında yer alan xəbərə görə, festival çərçivəsində noyabrın 29-da görkəmli azərbaycanlı bəstəkar, professor Fərəc Qarayevin "Orkestr və solo skripka üçün konsert"i səsləndiriləcək. Əsəri Y.Svetlanov adına Rusiya Dövlət Akademik Simfonik Orkestri təqdim edəcək. Orkestrin dirijoru Vladimir Yurovski olacaq. Solist Patrisiya Kopaçinskayadır.

## Növbəti kitab sərgisi Novruz bayramına həsr edilib



Martın 15-də Milli Kitabxanada milli mənəvi dəyərlərimizi özündə əks etdirən Novruz bayramı ilə əlaqədar kitab sərgisi açılıb.

Kitabxanadan bildirilib ki, "Azərbaycanın milli bayramı - Novruz" adlı sərgidə bayramın tarixi, çərşənbələr, xalq arasında yayılmış adətlər, habelə bayram oyunları, xalq meydan tamaşaları, ayrı-ayrı mövsüm atributları ilə bağlı və digər mövzularda ədəbiyyatlar nümayiş olunur.

On gün davam edəcək sərgi ilə hər kəs tanış ola bilər.

## Xalça Muzeyində "Ailə günü" proqramı üzrə silsilə tədbirlər

Azərbaycan Xalça Muzeyində ənənəvi olaraq keçirilən "Ailə günü" proqramı çərçivəsində Novruz bayramı ilə əlaqədar silsilə tədbirlər təşkil olunacaq.

Muzeydən bildirilib ki, bu tədbirlər bayram tətili günlərində davam edəcək. Məqsəd Bakı sakinlərinə və şəhərimizin qonaqlarına Azərbaycan milli-mədəni irsini, mənəviyyatımızı təbliğ etməkdir.

"Öyrən və əylən" rubrikasında uşaqlara Novruz bayramından öncə xalqımızın qeyd etdiyi dörd çərşənbənin hər birinin özəlliyi, ifadə etdiyi mənalarla bağlı məlumatlar veriləcək.

Xatırladaq ki, hər ayın son şənbə günü Azərbaycan Xalça Muzeyində "Ailə günü" təşkil edilir. Həmin gün muzey tərəfindən ziyarətçilərə, xüsusilə uşaqlara maraqlı tədbirlər proqramı təqdim olunur.

## Şirniyyatçımız beynəlxalq müsabiqənin qalibi olub

Azərbaycanlı şirniyyatçı Sənan Paşayev Türkiyədə IV Beynəlxalq tort və şokolad festivalı çərçivəsində həyata keçirilən "Master of cake İstanbul 2018" müsabiqəsinin qalibi olub.

Türkiyə mətbuatı xəbər verir ki, müsabiqədə təqdim edilən 200 tortun 50-si xarici şirniyyatçıya məxsus olub. 16 kateqoriyada keçirilən müsabiqədə Sənan Paşayev bütün kateqoriyalarda verilən mükafatları qazanaraq rekorda imza atıb. O, pul mükafatı ilə yanaşı, Lüksemburqda baş tutacaq beynəlxalq qastronomiya müsabiqəsində iştirak hüququ qazanıb və "Best in Show" mükafatına layiq görülüb.

# Xalq yazıçısı Anara Prezidentin Fəxri diplomu təqdim edilib

## Ədibin yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda geniş şəkildə qeyd ediləcək

**Martın 14-də Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı, görkəmli ədib, ictimai xadim Anarın 80 yaşı tamam oldu. Prezident İlham Əliyev martın 13-də yazıçının Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Dövlət başçısı 80 illik yubileyi münasibətilə Anara təbrik məktubu da ünvanlayıb.**





Martın 14-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Yazıçılar Birliyində "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu yubilyara təqdim edib.

Mərasimdə nazirin birinci müavini Vaqif Əliyev, Yazıçılar Birliyinin katibləri iştirak ediblər.

Anarın şəxsiyyəti və yaradıcılığı haqqında söz açan Əbülfəs Qarayev onu yubileyi münasibətilə təbrik edib, cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzu edib. Xalq yazıçısının yaradıcılığından bəhs edən nazir onu həm nasir və dramaturq, həm də ictimai xadim kimi fenomen şəxsiyyət adlandırıb. Qeyd edib ki, Anar Azərbaycan ədəbiyyatının canlı tarixidir. Onun ədəbi və ictimai fəaliyyəti həmişə Azərbaycan dövlətçiliyinin, milliliyinin təbliğinə yönəlib. Buna görə də Xalq yazıçısının yubileyi nəinki Azərbaycanda, həmçinin ölkəmizin hüdudlarından kənarda geniş şəkildə qeyd ediləcək.

Görüşdə bir sıra təkliflər irəli sürülüb. Əbülfəs Qarayev yaxın zamanda Göyçayda ədəbiyyat günlərinin keçirilməsini təklif edib.

Xalq yazıçısı dövlət başçısının onu təltif etməsinə və yubileyi münasibətilə təbrik məktubu ünvanlanmasına görə dərin minnətdarlığını ifadə edib.

# "Arşın mal alan" fransalı tamaşaçılar tərəfindən maraqla qarşılanıb

**Parisdə xarici ölkələrin filmlər həftəsi çərçivəsində "Arşın mal alan" filminin (1945) Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş rəngli versiyası "Le Balzac" kinoteatrında nümayiş olunub. Filmin nümayişi Azərbaycanın Fransadakı səfirliyi, Heydər Əliyev Fondu və Parisdə xarici ölkələrin mədəniyyət mərkəzlərinin forumunun (FİCEP) birgə təşkilatçılığı ilə reallaşıb.**





Tədbirdə səfir Rəhman Mustafayev bu il 120 illiyini qeyd edən Azərbaycan kinosunun tarixindən danışaraq, Bakıda ilk kinolentlərin 1898-ci ildə fransız əsilli Aleksandr Mişon tərəfindən çəkildiyini bildirib.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yaradıcılığından söz açan diplomat onun operettası əsasında 1945-ci ildə lentə alınmış "Arşın mal alan" filminin dünyanın müxtəlif dillərinə tərcümə edilərək bir çox ölkələrdə uğurla nümayiş olunduğunu diqqətə çatdırıb.

Kino tarixçisi, kinoglaz.fr portalının sədri Fransuaz Navailh Azərbaycan kinosunun tarixi haqqında məlumat verib.

Daha sonra ekran əsəri nümayiş etdirilib və fransalı tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Səfirliyin mədəniyyət işləri üzrə əməkdaşı Günay Axundovanın "Arşın mal alan" filmi, bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığı və Azərbaycan kinematoqrafiyası haqqında fransız dilində hazırladığı məlumat tamaşaçılara təqdim olunub.

Üzeyir bəyin kiçik qardaşı, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Fransada mühacir həyatı yaşamış Ceyhun Hacıbəylinin oğlu Timurçinin həyat yoldaşı Paskal Hacıbəyli Buşe film barədə təəssüratlarını bölüşüb: "Filmə dəfələrlə baxmışam, bu dəfə kino zalında böyük ekranda yeni, rəngli versiyada tamaşa etdim. Filmin musiqisini çox sevirəm, dinləməkdən doymuram. "Arşın mal alan" operettası 1925-ci ildə Fransada nümayiş olunub. Həmin dövrün afişalarını, eləcə də qəzetlərdə və jurnallarda onunla bağlı çıxan yazıları, təqdimatları saxlayıram. Bir neçə dəfə Bakıda olmuşam, son illər onun daha da inkişaf etdiyini, çox dəyişdiyini, daha da gözəlləşdiyini eşitmişəm. Yenə Bakıya getmək, onu görmək istərdim".

Timurçin və Paskalın oğlu Benjamin Hacıbəyli bildirib: "Mən filmi əvvəllər də görmüşəm, ancaq bu dəfə rəngli görmək böyük məmnuniyyət idi. Filmin bərpası çox keyfiyyətli olub. Onun fransız kinoteatrında nümayiş olunması çox yaxşıdır. Bu Azərbaycanın, eləcə də onun filmlərinin tanınmasına töhfə verir".

Əslən azərbaycanlı olan fransız aktyor Robert Hossein də filmi yüksək qiymətləndirib: "Çox bəyəndim. Sanki nağıllar aləmində idim. Filmin quruluşu, rənglər, ifalar, səslər son dərəcə gözəl idi. Filmə ilk dəfə idi baxırdım və ondan böyük həzz aldım".

# "Şah İsmayıl" -

## festival proqramının son tamaşası



7-14 mart tarixində keçirilən V Beynəlxalq Muğam Festivalı çərçivəsində konsert proqramları ilə yanaşı, muğamla zəngin Azərbaycan opera sənətinin nümunələri də təqdim olunub. Martın 13-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında festival proqramının son tamaşası - Müslüm Maqomayevin "Şah İsmayıl" operası təqdim olunub.

Qeyd edək ki, "Şah İsmayıl" operası ilk dəfə səhnəyə 1919-cu ildə qoyulub. Tarixi-əfsanəvi mövzuda yazılmış operanın libretto müəllifi Mirzə Qədir İsmayılzadədir. Müxtəlif illərdə əsas rollarda opera səhnəmizin istedadlı sənətkarları - Hüseynqulu Sarabski, Ələvsət Sadıqov, Baba Mahmudoğlu, Səfa Qəhrəmanov, Arif Babayev, Canəli Əkbərov (Şah İsmayıl), Firəngiz Əhmədova, Xuraman Qasımova, Zemfira İsmayılova (Gülzar), Həqiqət Rzayeva, Gülxar Həsənova, Rübabə Muradova, Sahibə Abbasova (Ərəbzəngi), Ağababa Bünyadzadə, Şahlar Quliyev (Aslan şah) və başqaları çıxış ediblər. Hazırda Şah İsmayıl rolunu istedadlı muğam ifaçısı, Əməkdar artist Təyyar Bayramov ifa edir.

# Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyi qeyd edilib

**Martın 14-də Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyinə həsr olunan mərasim keçirilib. Mərasimdə dövlət və hökumət qurumlarının, diplomatik korpusun nümayəndələri, Milli Məclisin deputatları, Mətbuat Şurası İdarə heyətinin üzvləri, media təmsilçiləri iştirak ediblər.**




Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək Mətbuat Şurasının 15 illik fəaliyyətini yüksək qiymətləndirib. Mətbuat Şurasının milli mətbuatımızın müasir inkişafına dəyərli töhfələr verdiyini vurğulayan Əli Həsənov deyib: "Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl Azərbaycan jurnalistlərinin VII qurultayı keçirildi və bu qurultayda Prezident İlham Əliyevin təbrik məktubunu səsləndirdim. Bu təbrik məktubunda Mətbuat Şurasının fəaliyyətinə çox yüksək qiymət verilib. Məktubda Azərbaycan cəmiyyətində media-dövlət, media-vətəndaş münasibətlərinin formalaşmasında, media mənsubları ilə ayrı-ayrı subyektlər arasındakı münasibətlərin sivil normalarının bərqərar olmasında Mətbuat Şurasının rolu qeyd edilib. Ötən müddətdə mətbuatın özünütənzimləmə mexanizminin, o cümlədən jurnalistlərin əxlaq kodeksinin yaradılması və media nümayəndələri arasında təbliği işində Mətbuat Şurasının fəaliyyəti təqdirəlayiqdir".

Prezidentin köməkçisi vurğulayıb ki, Mətbuat Şurası cəmiyyətimizdə, jurnalist ictimaiyyətində, bu quruma müraciət edən ayrı-ayrı vətəndaşlar arasında, həmçinin dövlət qurumları arasında nüfuz qazanıb.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxışında qeyd edib ki, Şura son 15 ildə Azərbaycanda söz və fikir azadlığının inkişafında böyük rol oynayıb. Yarandığı gündən indiyədək Şuraya 12 mindən çox şikayətin daxil olduğunu vurğulayan Ə.Amaşov qeyd edib ki, Şura bütün bu şikayətləri araşdırıb və lazımi qiymət verilib. Vurğulanıb ki, Azərbaycan dövləti Mətbuat Şurasına daim dəstək verib, qurum fəaliyyət üçün hər cür şəraiti olan ofislə təmin edilib. Şuranın kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı təklifləri dövlət tərəfindən dəstəklənib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, Mətbuat Şurası 15 il ərzində böyük inkişaf yolu keçib. BMT Azərbaycanda müstəqil medianın inkişafında maraqlıdır. O, BMT-nin Ərzaq Fondu ilə Mətbuat Şurası arasında yeni bir layihənin başlandığını deyib. Bu əməkdaşlıq çərçivəsində azərbaycanlı jurnalistlərə təlimlər keçiriləcək.

Avropa Şurası Bakı ofisinin rəhbəri Zoltan Hernyes qeyd edib ki, Mətbuat Şurası yarandığı gündən bizim qurumla sıx əməkdaşlıq edir. Mətbuat Şurası bizim uğurlu tərəfdaşımızdır.

Qocaman jurnalist, professor Şirməmməd Hüseynov çıxışında Azərbaycan mətbuatının tarixindən danışıb. Ölkəmizdə mətbuata xüsusi dövlət qayğısının olduğunu deyən Ş.Hüseynov məhz həmin qayğının nəticəsində bu sahədə xeyli nailiyyətlərin qazanıldığını vurğulayıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edildiyini, bu tarixin hamımız üçün qürur mənbəyi olduğunu vurğulayaraq əminliyini ifadə edib ki, dövlətimiz gücləndikcə, müstəqilliyimiz möhkəmləndikcə mətbuat sahəsində uğurlarımız da davamlı olacaq.

Sonra Mətbuat Şurasının 15 illik fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Mərasimdə Mətbuat Şurasının 2010-cu ildə təsis etdiyi Ali media mükafatı 3 dərəcə üzrə 2017-ci ilin laureatlarına təqdim olunub.

Tədbir konsert proqramı ilə davam edib.

# "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası"

## VI Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq elmi konfrans keçirilib



**Martın 14-də VI Qlobal Bakı Forumu çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının birgə təşkilatçılığı ilə "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli dahi şair Nizami Gəncəvinin xalqımızın yetişdirdiyi, dünya ədəbiyyatına böyük töhfə verən qüdrətli simalardan biri olduğunu deyib. Bu dahi söz ustadını Şərqin və Qərbin görkəmli sənətkarları ilə müqayisə edən akademik Nizami Gəncəvini dünya ədəbiyyatının Makedoniyalı İsgəndəri adlandırıb. O deyib: "Makedoniyalı İsgəndər hərbi qüdrəti, gücü ilə, Nizami Gəncəvi isə ədəbi şöhrəti, əsərləri ilə dünyanı fəth edib".

Akademik diqqətə çatdırıb ki, Nizami Gəncəvinin beş ölməz poeması dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirib. Bu poemalar "Xəmsə" adı altında dünya ədəbiyyatı xəzinəsinə töhfəsini verib. Nizami Gəncəvinin Şərq intibahının zirvəsində dayandığını deyən İ.Həbibbəyli dahi şairin ədəbi məktəb yaratdığını bildirib. Vurğulanıb ki, bu ədəbi məktəb bütün mədəni dünyada yaşayır. Çünki Nizaminin əsərlərindəki ideyalar dünyanı düşündürən ideyalar olub.

"Nizami XXI əsrdə dünyanı yenə də ədalət, azadlıq, sülhə çağırış idealları uğrunda mübarizəyə səsləyir", - deyə İ.Həbibbəyli çıxışını yekunlaşdırıb.

AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli müstəqillik illərində ölkəmizdə nizamişünaslıq sahəsində aparılan tədqiqat işlərindən danışıb. O, dünyada dahi Nizami Gəncəvinin əsərlərinə daim ehtiyac duyulduğunu diqqətə çatdırıb. Bildirilib ki, Nizaminin yaşamasının sirri onun humanizmində, ensiklopedik biliyində, əsərlərindəki multikultural dəyərlərdədir.

Sonra Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının sədri, professor Rəhilə Qeybullayeva konfrans haqqında məlumat verib.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Seragəldin Nizami Gəncəvini qeyri-adi şəxsiyyət, fitri istedad sahibi, bir neçə dildə danışa bilən, ensiklopedik biliyə malik bir insan kimi səciyyələndirib. Nizaminin "Divan" yazdığını, lakin dünya ədəbiyyatı tarixinə adını "Xəmsə" ilə həkk etdiyini deyən İ.Seragəldin vurğulayıb ki, bu əsərlər səkkiz əsrdən çoxdur ki, yaşayır və dünyada qəbul edilir. Bunu dünyanın tanınmış tənqidçiləri də təsdiq edir. Nizaminin əsərləri bu gün mədəniyyətlərarası dialoq platforması kimi çıxış edir. Onun əsərlərində qadın təkcə gözəllik predmeti deyil, həm də ağıl sahibi kimi təsvir olunur.

Nizaminin əsərlərindəki ideyaların genişliyindən danışan Kembric Universitetinin təmsilçisi Kristin van Rumbeke hələ tələbəlik illərindən onun əsərlərinə aşiq olduğunu, bu sevginin indi də davam etdiyini deyib. Dahi Nizaminin ədəbi qaynaqlardan və süjetlərdən yaradıcılıqla istifadə etdiyini bildirən K.Rumbeke şairin ideyaları sadə və poetik şəkildə oxucuya çatdırmaq bacarığını xüsusi vurğulayıb. Eyni zamanda alim Nizaminin geniş dini biliklərə, eləcə də dövrünün elmlərinə sahib olduğunu qeyd edib.

Elmi konfrans işini "Nizami və milli ədəbiyyat-mədəniyyət nəzəriyyələri dəyişən sərhədlər diskursunda", "Arxetiplər və təkrarlanan mədəniyyətlər", "Milli kimlik: ortaq keçmiş və onun müasir interpretasiyası", "Nizami yaradıcılığında konseptlər, obrazlar və dəyərlər: müasir dövrdən keçmişə baxış", "Nizami irsi orta əsrlər simvolları və regional konseptlər diskursunda", "Nizami irsi musiqi interpretasiyasında və təsbiqi incəsənətdə" mövzularında panel iclaslarla davam etdirib.

Panel iclaslarda Azərbaycanın və xarici ölkələrin alimlərinin mühazirələri dinlənilib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

## AMEA Türk Dünyası Elmlər Akademiyaları Birliyinə sədrlik edəcək

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət heyətinin növbəti iclası keçirilib. İclasda AMEA-nın Türk Dünyası Elmlər Akademiyaları Birliyinə rəhbərlik etməsi və qarşıda duran vəzifələr barədə müzakirələr aparılıb. AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, birlik Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin elmlər akademiyalarının fəaliyyətlərini əlaqələndirmək, birgə elmi layihələr həyata keçirmək, nəşrlər hazırlamaq, ortaq elmi mövqedən çıxış etmək məqsədilə yaradılıb. Türk Dünyası Elmlər Akademiyaları Birliyinə 2016-cı ildə Qazaxıstan, 2017-ci ildə isə Türkiyə elmlər akademiyaları sədrlik edib, bu il isə rəhbərlik AMEA-ya keçib.

Tədbirdə 2018-ci ilin may-iyun aylarında Bakıda birliyin növbəti iclasının, eləcə də Azərbaycan Xalq Cümhuriyyəti və Türk dünyası muxtar qurumlarının 100 illiklərinə həsr olunmuş beynəlxalq elmi konfransların keçirilməsi qərara alınıb.

**Artıq neçə illərdir ki, müxtəlif musiqi festivallarına ev sahibliyi edən paytaxtımızda daha bir beynəlxalq sənət bayramı tarixə qovuşdu. Martın 14-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında “Muğam aləmi” V Beynəlxalq Muğam Festivalının son zəngulələri vuruldu.**

# Muğam avazlı səkkiz gün

## V Beynəlxalq Muğam Festivalı başa çatdı








Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Bəstəkarlar İttifaqı və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə keçirilən və səkkiz gün davam edən festival ənənəvi beynəlxalq simpozium və muğam müsabiqəsi ilə də əlamətdar oldu.

Bağlanış mərasimində çıxış edən festivalın bədii rəhbəri, Xalq artisti, UNESCO-nun “Sülh artisti”, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə dedi ki, bu günlər ərzində Bakının bütün gözəl konsert salonlarında muğam havası hökm sürdü: “Yeddi axşam Beynəlxalq Muğam Mərkəzində bizim əvvəlki müsabiqə laureatlarının ifasında klassik Azərbaycan muğam dəsgahlarına qulaq asdıq. Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin şah əsərinə - “Koroğlu” operasına, dahi bəstəkarımız Qara Qarayevin “Yeddi gözəl” baletinə, Müslüm Maqomayevin “Şah İsmayıl” operasına  baxdıq, Marionet teatrında “Leyli və Məcnun” tamaşasını, Musiqili Teatrda çox sevdiyimiz “O olmasın, bu olsun” komediyasını seyr etdik. Bütün bunlar muğamın təsiri altında yaradılmış səhnə əsərləridir. Bu tamaşalar Azərbaycan muğam ifaçılığı sənətinin hansı yüksəklikdə olduğunu sübuta yetirdi və qəlbimizi qürur hissi ilə doldurdu”.

Diqqətə çatdırıldı ki, festival günlərində qonaqlar Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik, Dövlət Xalq Çalğı Alətləri, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrlərinin, Azərbaycan Dövlət Rəqs Ansamblının, Dövlət Xor Kapellasının, Dövlət Mahnı və Rəqs Ansamblının, “Cəngi” estrada-folklor , “Qaytağı” instrumental ansambllarının çıxışlarından zövq aldılar: “Muğama həsr etdiyimiz simpoziumda isə dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlər öz tədqiqatlarının nəticələrini bizimlə bölüşdülər. Yeddi gün ərzində biz  muğam möcüzəsi yaşadıq. Bu axşam isə biz müsabiqəmizin yeni laureatlarının adlarını elan edəcəyik”.

Firəngiz Əlizadə artıq beşinci dəfə reallaşan beynəlxalq festivalın keçirilməsinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya minnətdarlığını ifadə etdi: “Biz bir vaxtlar Səmərqənddə muğam simpoziumunda olarkən arzu edərdik ki, Azərbaycanda da beynəlxalq səviyyəli belə böyük elmi-musiqili məclislər baş tutsun. Nəhayət ki, biz buna nail olduq. Bu şəraitin yaradılmasına, beynəlxalq miqyaslı tədbirləri yüksək səviyyədə keçirə bildiyimizə görə ölkə rəhbərliyinə minnətdarıq. Mədəniyyət və Turizm Nazirliyinə, Elmlər Akademiyasına təşkilatçılıq fəaliyyətinə görə təşəkkür edirik”.

Sonra müsabiqə qalibləri F.Əmirov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin ifasında “Koroğlu” operasından Çənlibel səhnəsinin musiqi sədaları altında səhnəyə çıxdılar. Onlara mükafatları mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi və festivalın bədii rəhbəri Firəngiz Əlizadə təqdim etdilər.

Qeyd edək ki, Milli Konservatoriyada instrumental və vokal bölmələri üzrə müsabiqəyə qatılanların sənət məharəti beynəlxalq jüri - Azərbaycan, Polşa, Türkiyə, İran və Tacikistandan muğam biliciləri tərəfindən dəyərləndirilib.

Beləliklə, solo muğam ifaçılığı üzrə Elsevər Muradov (Azərbaycan) və İlyos Arabov (Özbəkistan) birinci, Sardor Soliyev (Tacikistan) və Pərviz Qasımov (Azərbaycan) ikinci mükafata layiq görüldülər.

İnstrumental muğam ifaçılığı üzrə birinci mükafat Nurlan Cəbizadəyə (Azərbaycan) verildi. İkinci yeri Elnur Mikayılov (Azərbaycan) və Aria Mohafez (İran) paylaşdılar. Otayon Akramov və Azamat Erqaşovun (hər ikisi Özbəkistan) çıxışları üçüncü mükafat  ilə qiymətləndirildi.

Müsabiqədə iştirak etmiş Noam Dayan (İsrail), Omer Abdo (Misir) və Arifə İmanova (Azərbaycan) Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi xüsusi diplom və pul mükafatını aldılar.

Təqdimatdan sonra nazir Əbülfəs Qarayev qalibləri təbrik edərək festivalın yekun sözünü söylədi: “Çox xoşdur ki, Azərbaycan Çindən ta Afrika ölkələrinədək geniş ərazidə yaşayan xalqların musiqi mədəniyyətində xüsusi yeri olan muğama həsr olunmuş növbəti beynəlxalq miqyaslı tədbirə ev sahibliyi etdi. Biz çox sevinirik ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə başlamış festival artıq öz ənənələrini yaradıb. Hamınıza bildirmək istəyirəm ki, Birinci vitse-prezidentin qərarı ilə üç ildən bir simpozium və müsabiqə də daxil olmaqla “Muğam aləmi” beynəlxalq festivalı davamlı olaraq keçiriləcək. İndidən biz artıq növbəti festivala hazırlığa başlayırıq. Bütün təşkilatçılara öz minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edib gənc istedadları dinləyən, onların qabiliyyətini qiymətləndirən münsiflər heyətinə təşəkkür edirəm. Əminəm ki, bu axşam ifasını eşidəcəyimiz qaliblərin konserti “Muğam aləmi” festivalının zirvəsi olacaq”.

Təltifetmə mərasimindən sonra beynəlxalq müsabiqə qaliblərinin konserti oldu. Qazaxıstandan gəlmiş “Nomat” ansamblının müşayiəti ilə Pərviz Qasımovun “Sarı gəlin” xalq mahnısı performansı, Azərbaycanı təmsil edən bütün qaliblərin birgə çıxışı alqışlarla qarşılandı. Konsert Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xoru və orkestrinin ifasında bəstəkar Vasif Allahverdiyevin Zəlimxan Yaqubun sözlərinə bəstələmiş “Azərbaycan torpağıyam” əsərinin ifası ilə başa çatdı.

**G.Mirməmməd**

## “YARAT” Akademiyasında yaz sessiyası

“YARAT” Akademiyası incəsənət haqqında cəmiyyəti maarifləndirməyi qarşısına məqsəd qoyaraq xarici və yerli incəsənət ekspertləri tərəfindən mühazirə və ustad dərsləri təşkil edir.

Bu ilin yaz sessiyası üçün tədris proqramı “Cittadellarte” Fondu ilə əməkdaşlıq çərçivəsində baş tutacaq. Fondun təsviri incəsənət, dəb, memarlıq və dizayn sahələri üzrə ekspertləri mühazirələr və görüşlər keçirəcəklər.

Sessiya müddətində Bolonya Müasir İncəsənət Muzeyinin direktoru Lorenzo Balbinin “Arte Povera” mövzusunda mühazirəsi dinləniləcək. “Yeni texnologiyalar və incəsənət” mövzusunda mühazirəni “YARAT” Müasir İncəsənət Mərkəzinin bədii direktoru, kurator və sənətşünas Suad Qarayeva-Maleki aparacaq.

Aprelin 18-də video, fotoqrafiya və rəngkarlıq sahələrində çalışan Səbinə Şıxlinskayanın təqdim edəcəyi mühazirə “Azərbaycan incəsənəti yenidənqurma dövründə” mövzusuna həsr olunacaq. Aprelin 20-də isə qeyri-maddi mədəni irs üzrə ekspert, musiqişünas Cahangir Səlimxanovun “İncəsənət və musiqi” mövzusunda mühazirəsi dinləniləcək.

## Vasif Allahverdiyevin yaradıcılıq gecəsi keçiriləcək

Martın 30-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında bəstəkar, Əməkdar incəsənət xadimi Vasif Allahverdiyevin yaradıcılıq gecəsi keçiriləcək.

Tədbir Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, filarmoniyanın və “Mədəniyyət” kanalının təşkilatçılığı ilə reallaşacaq. Gecədə bəstəkarın əsərlərini Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ifa edəcək. Konsertin solisti tanınmış vokalçı (messo-soprano) Ayan Qurbanovadır.

# Rusiyalı səyahət həvəskarları ölkəmizə böyük maraq göstərirlər

**Xəbər verdiyimiz kimi, martın 13-də işə başlayan 25-ci Moskva Beynəlxalq Səyahət və Turizm Sərgisində (MİTT 2018) ölkəmiz də iştirak edir. ”Ekspotsentr” kompleksində qurulan Azərbaycan stendi 90 kvadratmetr sahəni əhatə edir.**



Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə yaradılan stenddə həmçinin Milli Turizm Təbliğat Bürosu, Azərbaycan Konqreslər Bürosu, “Şahdağ” Turizm Mərkəzi QSC, “Azərbaycan Hava Yolları” QSC (AZAL), “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, nazirliyin Rusiya Federasiyasındakı turizm nümayəndəliyi - “Tour A Vent” şirkəti, eləcə də 20 yerli turizm şirkəti və 5 mehmanxana təmsil olunur.

Sərginin açılış günü Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu stendimizi ziyarət edib. Stendlə yaxından tanış olan səfir nümayəndə heyəti ilə xatirə şəkli çəkdirib.



Azərbaycan stendinə baş çəkənlərə rus və ingilis dillərində müxtəlif növ reklam-çap məhsulları təqdim edilib. Ölkəmizin turizm imkanlarına rusiyalı səyahət həvəskarları tərəfindən böyük maraq göstərilir. Naftalanın sağlamlıq-müalicə turizmi imkanlarının nümayiş olunduğu guşədə ziyarətçiləri maraqlandıran suallar cavablandırılıb, mütəxəssislər tərəfindən onlara tövsiyə verilib.

Sərgidə Azərbaycanın yay və qış turizm, dağ-xizək kurortlarının imkanları da nümayiş olunub. Bundan başqa, “İçərişəhər” tarixi-memarlıq qoruğu öz suvenir məmulatlarını nümayiş etdirib.

Sərgi çərçivəsində turizm sahəsi üzrə dünyanın bir sıra nüfuzlu ekspertlərinin iştirakı ilə konfrans keçirilib. Konfransda region ölkələrinin turizm potensialının reytinqi açıqlanıb. Xarici ekspertlər son illər Azərbaycanda turizmin sürətlə inkişaf etdiyini vurğulayıblar. Ekspertlərin sözlərinə görə, son illər Azərbaycan region ölkələri arasında ən çox turist cəlb edən ölkələrdən biridir. Rusiyalı turistlərin ən çox səyahət etdiyi ölkələr arasında Azərbaycan Türkiyədən sonra ikinci yerdədir. Siyahıda üçüncü yerdə Gürcüstan qərarlaşıb.

Qeyd edək ki, ölkəmiz 2002-ci ildən başlayaraq nazirliyin və yerli turizm şirkətlərinin iştirakı ilə Moskva sərgisində təmsil olunur. Dünyanın beş ən böyük turizm sərgisindən biri sayılan ”MİTT” sərgisində bu il 89 ölkə və Rusiyanın 79 regionu qatılıb. 25-ci Moskva Beynəlxalq Səyahət və Turizm Sərgisi martın 15-də başa çatıb.

## Turist axını ölkəyə daxil olan vəsaitin artmasına müsbət təsir edir



Müasir infrastruktur, xidmət keyfiyyətinin yüksəldilməsi, həmçinin sadələşdirilmiş viza sisteminin tətbiqi ildən-ilə ölkəmizə gələn turistlərin sayının artmasına zəmin yaradıb. Turist axını ölkəyə daxil olan vəsaitin də artmasına müsbət təsir edir.

Azərbaycan Mərkəzi Bankının təqdim etdiyi məlumatlara əsasən, respublikamıza gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları 2017-ci ildə 1 milyard manatdan çox olub. Bu, 2016-cı illə müqayisədə 70 faiz artım deməkdir.

Ölkəmizə gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatlarının həcminə görə 2016-cı ildə iyun, noyabr, dekabr ayları, 2017-ci ildə iyul, avqust və sentyabr ayları daha çox fərqlənib. Təsadüfi deyil ki, 2017-ci ildə ölkəmizi ziyarət edənlərin də böyük hissəsi məhz iyul-sentyabrda gələnlərdir.

Azərbaycanda fəaliyyət göstərən turizm şirkətlərinin sayı da artmaqdadır. Ötən il onların sayı artaraq 633-ə çatıb. Ölkəmizdə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli yerləşdirmə vasitələrinin sayı isə 2017-ci ildə 686 olub. Dünyanın müxtəlif ölkələrində turizmin inkişaf tempi, ölkəyə gələn turist axını orta hesabla 5-7 faiz arasında dəyişir. Ötən il Azərbaycana gələn xarici turistlərin sayı isə 20 faiz artaraq indiyədək qeydə alınan ən yüksək göstəriciyə - 2,7 milyon nəfərə çatıb. Turistlərə göstərilən xidmətlərin çeşidinin və səviyyəsinin artırılması istiqamətində müvafiq işlər davam etdirilir.

## Azərbaycan turizmi İtaliyada təbliğ olunur

**Mədəniyyət və Turizm Nazirliyi Milli Turizm Təbliğat Bürosunun təşkilatçılığı ilə İtaliyanın bir sıra media və turizm şirkətlərinin nümayəndələri Bakıya, eləcə də ölkənin regionlarına (Şəki, Mərəzə, Lahıc, Gəncə və s.) səfər ediblər.**




Bürodan bildirilib ki, səfərlərlə bağlı İtaliya mediasında silsilə məqalələr yerləşdirilib. Məqalələrdə ölkəmizin sağlamlıq, qastronomiya turizmi potensialı haqqında məlumat verilib. Həmçinin respublikada infrastrukturun inkişafından, keçirilən irimiqyaslı tədbirlərdən, o cümlədən Formula 1-dən bəhs edilib. Məqalələrdə Xalça Muzeyi, Heydər Əliyev Mərkəzi, İçərişəhər, “Flame Towers”, Yanardağ, palçıq vulkanları, Qobustan, Şəki Xan sarayı, Kiş və digər görməli məkanlar haqqında məlumatlar yer alıb. Eyni zamanda ölkəmizə səyahətin sərfəli və maraqlı olacağı vurğulanıb. Qeyd edilib ki, Bakıda gecələmək üçün beynəlxalq hotellər, hostellər və digər obyektlər çox münasibdir.

Məqalələrdə turistlər üçün milli adət-ənənələri əks etdirən xüsusi tədbirlərin keçirilməsi də diqqətə çatdırılır. Buna səyahətçilərin iştirak etdikləri çay mərasimləri və kəlağayı hazırlamağın öyrədilməsi, habelə şəbəkə düzəldilməsi prosesini müşahidə etməklə bağlı tədbirlər daxildir.

## İki ayda 545 min sərnişin



Heydər Əliyev Beynəlxalq Aeroportu 2018-ci ilin ilk iki ayı ərzində 545 mindən çox sərnişinə xidmət göstərib.

Aeroportun mətbuat xidmətindən verilən xəbərə görə, bu göstərici ötən ilin analoji göstəricisindən 16% çoxdur.

Cari ilin yanvar-fevral ayları ərzində “Azərbaycan Hava Yolları” (AZAL) milli aviadaşıyıcısının payına 222 min sərnişin, milli loukoster “Buta Airways”in payına isə 63 min sərnişin düşüb.

## İslam ölkələri ilə turizm əməkdaşlığı

Son zamanlar ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində turizm əlaqələri də genişlənir. Təşkilatın İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsi (COMCEC) ilə sıx əməkdaşlıq mövcuddur.

Komitənin maliyyə dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2013-2015-ci illərdə “Ümumi mədəni irs şəhərləri” beynəlxalq arxeoloji turizm marşrutunun yaradılması layihəsi həyata keçirilib. Layihə COMCEC-ə üzv olan dörd ölkədə (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan) mədəni turizm, xüsusilə arxeoloji turizm potensialının araşdırılması, onları birləşdirən ortaq turizm məhsulunun yaradılmasını əhatə edib.

Mədəniyyət və Turizm Nazirliyi COMCEC-lə əməkdaşlığı müvafiq işçi qrupu səviyyəsində mütəmadi olaraq davam etdirir. Nazirlik 2017-ci ilin mayında COMCEC-in milli və işçi qruplar üzrə əlaqələndirici şəxslərinin beşinci illik koordinasiya iclasında, sentyabrda turizm üzrə işçi qrupunun “Turizm sektorunda risk və böhranların idarə olunması: İƏT-ə üzv ölkələrdə böhranların aradan qaldırılması”, bu ilin fevralında isə “İƏT-ə üzv ölkələrdə turizm destinasiyalarının inkişafı və təsisatlanma strategiyaları” mövzularında görüşlərdə iştirak edib. COMCEC İslam Əməkdaşlıq Təşkilatının dörd əsas daimi komitəsindən biridir. Komitə İslam ölkələri arasında çoxtərəfli iqtisadi və kommersiya əməkdaşlığı üçün əsas platforma rolunu oynayır.

# Paytaxt teatrlarının Novruz xonçası

**Havanın necə keçməyindən asılı olmayaraq, fəslin üzü yazadır. Üstəlik, yaz fəsli Azərbaycana ən uzun bayram tətili ilə qədəm qoyur. Bu günlər tez-tez görə bilmədiyin dostlar-qohumlarla ünsiyyət fürsəti, qısamüddətli səyahətə çıxmaq imkanı vəd etsə də, həm də çox uzağa getmədən mədəni istirahət etmək, iş çoxluğundan təxirə salınan uşaqlarla vaxt keçirmək, ailəvi harasa çıxmaq üçün də şansdır.**
**Elədə sizi "Novruzda nəyə baxaq?" adlı məlumatlandırıcı ekskursa dəvət edirik. Adətən evdə çox oturmaqdan bezən, üstəlik, əyləncəli vaxt keçirməyi ən çox arzulayan balacalar olduğundan, ilk növbədə, övladının mənəvi tərbiyəsini arxa plana keçirməyən valideynlərin maraqlarını nəzərə alırıq.**







**Ən sevimli tamaşalar bayram repertuarında**

A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı Novruz tətili günlərində repertuardakı ən sevilən tamaşaları təqdim edəcək. Balaca teatrsevərlər martın 19-dan 26-dək hər gün 4 seans (saat 12, 14 və 16-da Azərbaycan dilində, 18-də rus dilində) nağıl-tamaşalara baxa biləcəklər. Tam bir həftə ərzində "Cırtdan", "Qoğal", "Ağ babanın nağılı", "Tıq-tıq və Taq-taqın nağılı", "Turp", "Gözəl və Bədheybət", "Qoçaq Əhməd", "Çipollino", "Durna balığı" tamaşaları nümayiş olunacaq.

**İki yeni tamaşa ilə başlayan tətil**

Azərbaycan Dövlət Gənc Tamaşalar Teatrında Novruz ərəfəsində təhvil verilən iki uşaq tamaşasını kollektivin bayram töhfəsi hesab etmək olar. Üstəlik, bu tamaşalar bizim illərdən bəri alışdığımız Keçəl, Kosa və Bahar qızın iştirakı ilə keçən ənənəvi bayram tamaşalarından deyil...

Beləliklə, bayramqabağı, artıq martın 16-da H.X.Andersenin eyniadlı nağılı əsasında hazırlanmış "Qar kraliçası" trillerinin premyerasıdır. Yeri gəlmişkən, rejissor Elşad Rəhimzadənin səhnələşdirib quruluş verdiyi tamaşa orta sinif şagirdləri üçün nəzərdə tutulub. Tamaşada Əməkdar artist Qəmər Məmmədova, aktyorlardan Anar Seyfullayev, Xəyalə Meydanova, Aygün Fətullayeva, Zemfira Əbdülsəmədova, Mehriban Hüseynova və başqaları rol alıb.

Teatr ənənəvi tamaşaçı kontingenti hesab etdiyi məktəbəqədər uşaqları və kiçikyaşlı məktəbliləri də unutmayıb. Martın 18-də onlar E.Uspenskinin "Çeburaşka" tamaşası ilə ilk dəfə tanış ola biləcəklər. Quruluşçu rejissoru Ayla Həşimova olan tamaşada rollarda Əməkdar artist Almaz Mustafayeva, aktyorlar Səbinə Məmmədova, Ceyhun Məmmədov, Xəyalə Meydanova, Zülfiyyə Alhüseynova, Müşfiq Əliyev, Yasəmən Məmmədova və başqaları çıxış edirlər.

Bayram tətilində həmçinin gün ərzində üç seans (saat 12.00, 14.00, 16.00) teatrın repertuarından "Çəkməli pişik", "Qoğalın sərgüzəştləri", "Danışan gəlincik", "Çipollino", "Əlibaba və qırx quldur" tamaşaları nümayiş olunacaq.

Yetkin yaşlı tamaşaçılar da unudulmayıb. Martın 24-də K.Qoldoninin "Mehmanxana sahibəsi", 25-də isə V.Şuqrayeva və Ə.Əmirlinin "Qohumlar" komediyaları sizə gülüş və zarafat dolu ovqat bəxş edəcək.

**Qonaq gəlib "Mikki Maus və dostları"**

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı bayram həftəsini elə bayram kimi keçirir. Yəni kollektiv həm istirahət edir, həm də demək olar ki, qrafikdən çıxmadan tamaşa oynayır. Bununla belə, bayram həftəsində cari repertuardan tamaşalar göstərəcək kollektiv martın 24-25-də ilk dəfə "Mikki Maus və onun dostları" adlı yeni musiqili interaktiv şounu da təqdim edəcək.

Ailəvi baxış üçün nəzərdə tutulmuş musiqili tamaşada bütün maneələri aşa biləcək dostluq, cəsarət, sədaqət kimi hislərin zəfərindən söhbət açılır. Bu sehrli əhvalat heyrətamiz işıq tərtibatı, xüsusi effektlər, tamaşanın bütün qəhrəmanlarının ifasında orijinal və parlaq rəqs nömrələri, mahnılar, gözoxşayan libaslar və təbii ki, xoşbəxt final ilə yadda qalacaq.






Böyüklər isə bayram günlərində janr və ruh etibarilə rəngarəng səhnə əsərlərinə baxa biləcəklər. Martın 23-də Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında hazırlanmış tamaşa, 24-də N.Kouardın "Sanset bulvarı" "qara komediya"sı, 25-də isə P.Qladilinin "Afina axşamları" lirik komediyası oynanılacaq.

**Hansına "O olmasın, bu olsun" deyək?**

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə Azərbaycan Dövlət Musiqili Teatrının kollektivləri Novruz günlərində paytaxtda keçirilən tədbirlərdə məşğul olduğundan bu məkanlarda yalnız həftənin ikinci yarısında tamaşalar olacaq.

Musiqili Teatrda martın 23-də Ü.Hacıbəylinin "O olmasın, bu olsun", 24-də E.Sabitoğlu və T.Vəliyevanın "Bankir adaxlı", 25-də isə Elçinin "Baladadaşın toy hamamı" komediyaları oynanılacaq. Balaca teatrsevərlər isə martın 24-də V.Ulyanovski və V.Orlovun "Qızıl cücə" (rus dilində), 25-də O.Zülfüqarov və R.Heydərin "Dəcəl çəpişlər" tamaşalarına baxa biləcəklər.

Maraqlıdır ki, gələn həftəsonu Opera və Balet Teatrı da "O olmasın, bu olsun" tamaşası ilə öz pərəstişkarlarını sevindirmək niyyətindədir. Milli musiqili teatr ənənələrini çox sevənlər martın 23-də Üzeyir bəyin bu məşhur və heç vaxt dəbdən düşməyən komediyasını, ayın 25-də isə «Əsli və Kərəm» dastanı əsasında bəstələdiyi eyniadlı muğam operasını seyr edə biləcəklər. Martın 24-də isə balet həvəskarları Qara Qarayevin birpərdəli «Leyli və Məcnun» və «Don Kixot» baletlərinin seyrindən zövq alacaqlar.

**Bu qış niyə bitmək bilmir?**

...Xan çoban, Əkinci və Bağban qışın gec getməyindən narazıdırlar. Çox düşünüb-daşınandan sonra onlar Bahara şikayət edirlər. Bahar isə onları diqqətlə dinləyir, Çərşənbələri Qışın üstünə göndərir. Gərgin mübarizədən sonra şikayətçilərin arzusu yerinə yetir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının builki Novruz bayramı günlərində azyaşlı tamaşaçılar üçün hazırladığı "Gəl, baharım, gəl, yazım" tamaşasının qısa məzmunu belədir. Tamaşa Xanım Həsənovanın eyniadlı əsəri əsasında hazırlanıb, quruluşçu rejissoru isə Anar Babalıdır. Səhnə əsərində əməkdar artistlər Mehriban Xanlarova və Mirzə Ağabəyli, aktyorlar Ramin Şıxəliyev, Vüsal Xaliqoğlu, Rəşad Bəxtiyarov, Mehman Fətullayev, Rüstəm Rüstəmov, Şəhla Əliqızı, Rada Nəsibova, Firuzə Balayeva, Xədicə Novruzlu, Ceyran Baxışova və başqaları məşğuldur.

"Gəl, baharım, gəl, yazım" tamaşası 19-25 mart tarixində hər gün dörd seans - saat 11.00, 13.00, 15.00 və 17.00-da nümayiş olunacaq.

* * *

...Yazı dili yüyrək olar. Biz də bu yazıda intizarını çəkdiyimiz ən əziz milli bayramımız olan Novruz günlərində paytaxt teatrlarının hazırladığı tamaşa xonçasını qarşınızda açdıq. Novruza hələ bir neçə gün qalsa da, indidən bayramınızı təbrik edirik.

Milli bayrama sənət bayramı zövqü qatılacaq günlərdə sizlərlə teatr məkanlarında görüşmək arzusu ilə

**Gülcahan Mirməmməd**



# Beynəlxalq qadınlar günü və Novruz münasibətilə

## "Pəncərə klubu"nun növbəti tədbiri keçirilib



"Pəncərə klubu"nun növbəti söz-sənət görüşü Beynəlxalq qadınlar günü və Novruz bayramına həsr olunub. Martın 13-də, Yel çərşənbəsi axşamı "Muğam klub"da keçirilən "Keçmişə açılan pəncərə" adlı tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, birliyin katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Xalq rəssamı Fərhad Xəlilov, xalq artistləri Fəxrəddin Manafov, Oqtay Mirqasımov, Yalçın Adıgözəlov, Ramiz Həsənoğlu və başqaları iştirak edib.

Gecəni Əməkdar artist Nərgiz Cəlilova açaraq "Pəncərə klubu"nun sayca 12-ci gecəsinin Yel çərşənbəsi axşamına təsadüf etməsinin əlamətdar hal olduğunu bildirib.

Sonra "Pəncərə klubu"nun rəhbəri, yazıçı-publisist Günel Anarqızı tədbirin məramından danışıb. Bildirib ki, Beynəlxalq qadınlar günü ərəfəsində internet resurslarında "Analar və qızları" adlı layihə təqdim edilib. Müxtəlif sahələrdə uğur qazanan 8 qadına və onların gənc qızlarına həsr edilən layihə elə ilk gündən izləyicilərin böyük marağına səbəb olub. İkinci layihə ziyalı və sənət adamlarının iştirakı ilə "Pəncərə klubu" tərəfindən çəkilib və hazırlanıb. Novruz bayramına həsr edilən "Dünya bir pəncərədir" adlı layihədə məşhurlar bayatı söyləyiblər.

Tədbirdə musiqiçilərin çıxışı dinlənilib, həmçinin Xalq artisti Fəxrəddin Manafov və Əməkdar artist Mehriban Zəki Xalq yazıçısı Anarın 80 illik yubileyi münasibətilə onun əsərlərindən parçalar səsləndiriblər.

Daha sonra Xalq yazıçısı Çingiz Abdullayev yubilyarı təbrik edib, yazıçı ilə bağlı yaddaqalan və unudulmaz anlarını bölüşüb.

Gecənin sonunda iştirakçılara bayram hədiyyələri təqdim olunub.





**Martın 13-də Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Azərbaycan və Türkiyə ədəbiyyatlarından seçilmiş şeirlər əsasında "Şair və vətən" adlı ədəbi gecə təşkil olunub.**

# "Şair və vətən" adlı şeir gecəsi

Bakı Yunus Əmrə İnstitutunun təşkilatçılığı ilə reallaşan gecə Azərbaycan Xalq Cümhuriyyətinin və Qafqaz İslam Ordusunun yaranmasının 100-cü ildönümünə həsr edilib. Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Cihan Özdemir tədbirin ənənəvi olaraq keçirildiyini qeyd edərək deyib: "Bu il Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusunun yaranmasının 100-cü ildönümü tamam olur. İki qardaş ölkənin rəhbərliyi bu iki önəmli hadisəni geniş səviyyədə qeyd edəcək. Biz də Bakı Yunus Əmrə İnstitutu olaraq bu yöndə fəaliyyətimizi davam etdirəcəyik. Bugünkü tədbir də bu qəbildən sayılır. Tədbirdə iki ölkənin ədəbiyyatı və poeziyası haqqında məlumatlar əldə edə biləcəyik".

Sonra ədəbiyyatşünas Sahura Quliyeva və yeni türk ədəbiyyatı üzrə mütəxəssis, professor Yaqub Çelik Azərbaycan və Türkiyə poeziyasının tarixi və inkişaf yolu barədə ətraflı məlumat veriblər.

Tədbirdə vətən və dövlətçiliyə aid şeirlər səsləndirilib. Sonda Bakı Bələdiyyə Teatrının yaradıcı kollektivinin iştirakı ilə kiçik səhnə əsəri təqdim olunub.

# "Həqiqət istərəm, yalnız həqiqət"



## Hüseyn Cavid haqqında sənədli televiziya filmi çəkilir

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin "Azərbaycantelefilm" Yaradıcılıq birliyində böyük şair, dramaturq Hüseyn Cavid haqqında "Həqiqət istərəm, yalnız həqiqət" sənədli televiziya filminin istehsalına başlanılıb. Filmin çəkilişləri Hüseyn Cavidin ev-muzeyində aparılır.

Muzeydən bildiriblər ki, filmin ssenari müəllifi Əməkdar jurnalist Salar Aslanov, quruluşçu rejissoru Hatəm Əsgərov, elmi məsləhətçisi Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı, quruluşçu operatoru Mətləb Yaqubovdur.

Filmdə Hüseyn Cavid obrazını Mübariz Nağıyev, Mişkinaz xanım obrazını Xalq artisti Səidə Quliyeva, Üzeyir Hacıbəyli obrazını Əməkdar artist Əyyub Quliyev, Abdulla Şaiq obrazını Əməkdar artist Cəlal Məmmədov canlandırırlar.

# Folklor evində Yel çərşənbəsi



Xaçmaz rayon Mədəniyyət mərkəzinin filialı olan Niyazabad Folklor evi Yel çərşənbəsini qeyd edib. Tədbirdə çıxış edənlər bildiriblər ki, Novruzun - baharın müjdəçiləri olan dörd ilaxır çərşənbədən üçüncüsü olan Yel çərşənbəsi ilə bağlı çoxlu inanclar da var. Bu çərşənbəyə xalq arasında yelli-küləkli çərşənbə də deyirlər. Yel çərşənbəsində əsən isti, soyuq küləklər yazın ılıq nəfəsini, hənirtisini, təravətini gətirir. Bu gündən sonra son çərşənbəyə hazırlıq görülür, ev-eşik, həyət-baca təmizlənir, şirniyyatlar bişirilir.

Daha sonra Niyazabad folklor kollektivinin ifasında müxtəlif rəqslər nümayiş etdirilib, Novruzun atributları olan Kosa və Keçəl müxtəlif səhnəciklərlə çıxış ediblər. Şən əhval-ruhiyyədə keçən tədbirdə həmçinin qədim adət-ənənələrimiz təbliğ olunub, sac üstündə yuxa yayılıb, buğda qovurulub.

# Mədəniyyət mərkəzinin kollektivləri Cocuq Mərcanlıda konsert verib

Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə Salyan rayon Mədəniyyət mərkəzinin bədii-özfəaliyyət və "Cəngi" xalq kollektivləri, "Güzgü" miniatür teatrının aktyorları Cəbrayıl rayonunun işğaldan azad olmuş Cocuq Mərcanlı kəndindəki klubda kənd camaatı və əsgərlər qarşısında geniş konsert proqramı ilə çıxış ediblər. Kollektivlərin çıxışları yerli sakinlər və hərbçilərimiz tərəfindən rəğbətlə qarşılanıb.

# Alimlərimiz Şimali Kiprdə simpoziumda iştirak ediblər

**Şimali Kiprin Lefkoşa şəhərində Atatürk Mədəniyyət Mərkəzində Kipr Balkanlar Avrasya Türk Ədəbiyyatları Vəqfi, Kipr Balkanlar Avrasya Türk Ədəbiyyatları Qurumu (KIBATEK) və digər qurumların işbirliyi ilə III Uluslararası Türk Ədəbiyyatı və Ədəbiyyatçıları Simpoziumu keçirilib.**

Simpoziumda Türkiyə, Kipr, Azərbaycan, Rusiya, Bolqarıstan, Moldova (Qaqauz Yeri), İran, Qazaxıstan, Özbəkistan və Polşanı təmsil edən çoxsaylı tədqiqatçılar və ədəbiyyat xadimləri iştirak ediblər. 14 iclasdan ibarət olan simpoziumda 67 məruzə dinlənilib.

Açılışda Şimali Kiprin prezidenti Mustafa Akıncı çıxış edib. Prezident M.Akıncı çıxışından sonra Azərbaycandan olan iştirakçı, Avrasiya Universitetinin müəllimi, dosent Elmira Məmmədova-Kekeçə Kipr türk ədəbiyyatının tanıdılmasında çalışmalarına görə mükafat təqdim edib.

İclaslarda Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun əməkdaşları - filologiya üzrə fəlsəfə doktorları Tahir Orucov, Nizami Muradoğlu, Ataş Əhmədli, Bakı Avrasiya Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Elmira Məmmədova-Kekeç və tədqiqatçı Vaqif Orucov elmi məruzələrlə çıxış ediblər.

**S.Qaliboğlu**



**Martın 13-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasının konfrans zalında F.Köçərli adına Respublika Uşaq Kitabxanası ilə Ukrayna Milli Uşaq Kitabxanası arasında "Sərhəd bilməyən incəsənət" layihəsi çərçivəsində "Milli musiqi alətləri" adlı skayp-görüş keçirilib.**

# Sərhəd bilməyən incəsənət

## Respublika Uşaq Kitabxanası ilə Ukrayna Milli Uşaq Kitabxanası arasında skayp-görüş





Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova bildirib ki, Novruz bayramı ərəfəsində keçirilən tədbirin əsas məqsədi ölkə hüdudlarından kənardakı uşaq kitabxanaları ilə sıx əməkdaşlıq qurmaqla uşaqlara yeni dostlar qazandırmaq və onları iki ölkənin qədim musiqi alətləri haqqında məlumatlandırmaqdır.

Tədbirdə Ukraynanın Azərbaycandakı səfirliyinin məsləhətçisi Aleksandr Sençenko, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru Leyla İmanova və başqaları iki xalqın yetişməkdə olan gəncliyinin məktəb illərindən başlayaraq dostluq əlaqələrinin qurulmasını alqışlayıblar. Vurğulanıb ki, dost xalqların gənclərinin bir-birinin mədəniyyətləri ilə tanış olması, qədim musiqi alətləri haqqında məlumat toplaması müsbət haldır.

Görüşdə skayp vasitəsilə Georgi Şaroyev adına 35 nömrəli uşaq musiqi məktəbi və 7 nömrəli uşaq musiqi məktəbinin şagirdləri, Azərbaycan Avropa liseyinin V sinif şagirdləri ilə Ukraynanın V sinifdə oxuyan məktəbliləri qarşılıqlı olaraq hər iki tərəfin musiqisi və musiqi alətləri ilə tanış olublar.

Sonda uşaqları maraqlandıran suallar cavablandırılıb, mövzu ilə əlaqədar fikir mübadiləsi aparılıb.

# "Oxucularla üz-üzə"

## Kitabxanada şairlə görüş keçirilib



Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsinin təşəbbüsü ilə S.Vurğun adına Mərkəzi kitabxanada "Oxucularla üz-üzə" layihəsi çərçivəsində Əli Kərim adına Poeziya evinin müdiri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair İbrahim İlyaslı ilə görüş keçirilib.

Kitabxananın böyük metodisti Natəvan Axundzadə əvvəlcə şairin yaradıcılığı haqqında qısa məlumat verib. Sonra İbrahim İlyaslı çıxış edərək ona ünvanlanan sualları cavablandırıb, öz şeirlərini oxuyub.

Poeziya evinin əməkdaşı Elvin Əlizadə, Sumqayıt Dövlət Universitetinin tələbələri müəllifin şeirlərini söyləyiblər.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı şəhər komitəsinin sədri Şahin Şəfiyev, MKS-nin direktoru Yeganə Əhmədova müəllif haqqında ürək sözlərini söyləyiblər.



# Tahir Salahovun ev-muzeyində Novruz mərasimi

Hər il olduğu kimi, bu il də İçərişəhərdəki Tahir Salahovun ev-muzeyində Novruz bayramına həsr olunmuş "Çərşənbə" adlı tədbir keçirilib. Tədbir Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən Respublika İncəsənət Gimnaziyası ilə birgə təşkil olunub.

Gimnaziyanın şagirdləri Novruz bayramını özündə əks etdirən səhnəciklər təqdim edib, milli rəqslərimizi ifa edib, mahnılar oxuyublar.

# Asudə vaxt mərkəzində ingilis dili kursu

**Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Sabunçu rayon Asudə vaxt mərkəzində "Speak Like Ali" layihəsinin ilk rəsmi filialının açılışı olub.**



Baş idarədən bildirilib ki, kursun əsas məqsədi əhalinin, xüsusən də gənc nəslin ingilis dilində sərbəst danışığa və gözəl nitqə yiyələnməsidir.

"Speak Like Ali" kurslarında təhsil almaq istəyən hər bir şəxs üçün tədris proqramı xüsusi olaraq tərtib edilir. Məşğələlər istəkdən asılı olaraq həm qrup, həm də fərdi şəkildə keçirilir. Təqdimatı kursun rəhbəri Əliseyfəl Quliyev açaraq iştirakçılara layihə haqqında ətraflı məlumat verib. Sonra kursun tələbələri çıxış ediblər.

Qeyd edək ki, H.Abbasov adına Mədəniyyət evində start götürən "Speak Like Ali" layihəsi böyük maraqla qarşılanıb və yaxın zamanlarda Bakı şəhərinin digər mədəniyyət müəssisələrində filiallarının açılışı nəzərdə tutulub.

**Martın 13-də AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional şöbəsi Kürdəmirdə Yel çərşənbəsi ilə bağlı şənlik keçirib.**

# Muzeyin regional şöbəsində Yel çərşənbəsi



Muzeyin həyətində Novruzun atributları olan səməni, şamlar, milli şirniyyatlar, rəngli yumurtalar, meyvələrlə zəngin xonçalardan ibarət süfrə açılıb, tonqal qalanıb.

Tədbiri regional şöbənin müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açaraq Bahar bayramı - Novruzun ölkəmizdə dövlət səviyyəsində qeyd edilməsindən, xalqımızın milli mənəvi dəyərlərinə sadiqliyindən danışıb, insanlar arasında qarşılıqlı hörmət, səmimiyyət və mehribanlıq aşılayan bu bayram münasibətilə iştirakçıları təbrik edib, alqış-dualarını çatdırıb.

Sonra söz gənclərə verilib. Onlar əcdadlarımızdan qalan gülməcələr, atalar sözləri, tapmacalar, bayatılar, bahara aid şeir və nəğmələr söyləyiblər. Kosa ilə Keçəlin meydana gəlişi, şux zarafatları şənliyə ayrıca ovqat qatıb. Halayçı qızların məzəli bayatıları, tonqal yörəsində halay çəkməsi də tamaşaçılar tərəfindən alqışla qarşılanıb.

Şənliyə toplaşanlar qara zurna, saz ifaçıları Mayıl Dəmirov və Əli Dağlaroğlunun səsləndirdiyi qədim el havalarının şux sədası altında rəqs ediblər. Sonda iştirakçılara xonçalardan bahar sovqatı paylanıb.

**S.Qaliboğlu**

# Sağlamlıq imkanları məhdud uşaqlara bayram şənliyi

Martın 13-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli respublika xüsusi internat məktəbində Novruz şənliyi keçirilib. Şənlikdə nazirliyin, Xəzər Rayon İcra Hakimiyyətinin əməkdaşları iştirak ediblər.

Əvvəlcə qonaqlar "Köhnə və yeni Bakı" dekorasiyaları, qədim xalq sənəti nümunələri ilə bəzədilən internat məktəbinin həyətində dekorativ sənət, rəsm və toxuculuq dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Sonra məktəbin dram dərnəyi üzvlərinin iştirakı ilə "Keçəlin saqqalı və Kosanın saçı" adlı tamaşa nümayiş olunub. Novruz bayramının adət-ənənələrini əks etdirən səhnəciklər təqdim edilib, milli rəqslərimiz ifa olunub. Uşaqlar Kosa və Keçəl ilə birgə rəqs edib, mahnı oxuyublar.

# SÖZün özü, gözü, közü...

## Qədim Türkün bütün zamanlara işləyən Söz möhürü, hikmət boxçası Yunus Əmrə



**Ucsuz-bucaqsız etnodünyamızın islamiyyətiqəbul sonrası Türkün "pərakəndə" ədəbiyyatında milli ruhun daha çox sezildiyi yeniliklər müşahidə olunmağa başladı ki, gələcək onları; yüksək zümrəviliyi ehtiva edən "klassik - başqa sözlə, "divan" ədəbiyyatı", "xalq ədəbiyyatı" və bunlararası körpü rolunu oynayan "təsəvvüf ədəbiyyatı" adlandırdı. Əhməd Yəsəvinin 12-ci yüzillikdə Türküstan aləmində bünövrələdiyi təsəvvüfi ədəbiyyatı enilməz zirvəyə qaldıran, əsasən, səslənişlə yaşadılan böyük areallı Türk dilini yazılışa da calayan isə, məhz Yunus Əmrə oldu...**

Doğumu Rum sultanlığının dağılması, ümumən Osmanlı xanədanında bəyliklərin yaranması çağlarına təsadüf edən bu sənətkar 1238-ci ildə - adı, qoca tarixin şifahi və yazılı yaddaşında ən çox çəkilən Anadolu elatında (Sarayköy, Milhalıççıq, Əskişəhər) dünyaya gəlib. Öz məsnəvilərinin birində isə: "Sözə tarix yeddi yüz yeddi idi, Yunus canı bu yolda fidi idi" yazıb. Bəyazid Dövlət Kitabxanasında tapılmış bir əlyazmadakı qeydə ("Vəfati Yunus Əmrə. Müddəti-Ömür 82 il 720") görə, Yunus Əmrənin 1240-cı ildə doğulduğu, 1320-ci ildə vəfat etdiyi iddia olunur.

Ancaq, hər halda, şeirlərinin bəzilərinin "iddia"sına (və bizim tələbəliyimizdə çox zəhmətkeş bir araşdırıcı müəllimimizin şərhinə) görə, bu könüllər sultanı hansısa bir ilin yaz çağında doğulub. Ki: "Hər bir çiçək min naz ilə Öyər Haqqı niyaz ilə, Quşlar da xoş avaz ilə Yaradanımı zikr edər" kimi bahariyyələr yazıb. Başqa bir bəndində isə ulu Qurbaninin fitrətən "özəlləşdirmiş" olduğu yaşılı "bənövşə"nin bir sarışın bacısını nəzmə çəkir:

*Sordum sarı çiçəyə*
*Boynun nədən əyridir?*
*Söylədi ki, ey dərviş,*
*Qəlbim Haqqa doğrudur...*

Sənədlər bu şair haqda "müdriklər müdriki Hacı Bəktaş Vəli Dərgahında olub dövrün fövqünə qalxdı, "Bizim Yunus" deyimli mənəvi yüksəlişə isə Tapdıq Əmrə Dərgahında yetdi", "bənzərsiz İNSANçılığa Ustad dərgahında illərlə çalışdığı odunçuluq fəaliyyətilə çatdı" kimi sözlər söyləyir.

Onun yaşayıb-yaratdığı illər Anadolunun monqol yağmalamaları, daxili çəkişmə, siyasi nüfuzsuzluq, müxtəlif məzhəb-inanc, qıtlıq-quraqlıq pərişanlıqları ilə müşahidələnən dövrə düşüb. Bununla belə, bu müdrikin Tanrı sevgisi, ali əxlaq, məhəbbət, İslam təsəvvüfü və s. kimi mövzuları mənimsəyəcəyi mənbələr də vardı: Mövlanə Cəlaləddin Rumi, Hacı Bəktaşi Vəli, Ahi Əvran Vəli...

Bu çətinliklər hələlik çox adi Yunusu gələcəyin "Bizim Yunus" olqusuna yollayır. Yaxın gələcəkdə: "Mal sahibi, mülk sahibi, hanı bunun ilk sahibi? Mal da yalan, mülk də yalan; var - bir az da, sən də oyan!" - deyəsi bu könlü-gözü tox bəndə Hacı Bəktaşi Vəlinin yanına gedib, əhvalına bir sünbül yazıq-fağırlıq yansıtmadan, üçqat əmək bahasına bir girvənkə buğda istəyir. Bu məğrurluq və ağayanalıqdan çox xoşlanan Hacı Bəktaşi onu dövrün ünlü dərvişi Hacı Tapdıq Əmrə ilə tanış edir və beləliklə, bu saya-sayılmaz Yunus əbədi ömür qazanası ƏMRƏlik dövrünə qədəm qoyur. Bir müddət keçmiş "kandan gəlib məkana üz tutan bir dərvişə" çevrilir. O, dövrün ən yüksək məqamlarından hesab edilən bu görəvə dair "Dərvişlik dedikləri bir əcaib duraqdur, Dərviş olan kişiyə əvvəl dirilik gərəkdür" "hökm"ü vermiş, digər bir şeirində: "Mənzili iraq bu yolun, bu yola kim varası? Müşkülü çoq bu yolun, bunu kim başarası?" sorğusunda bulunmuşdur.

Tezliklə ustadından daha məşhur Ustad olası bu şəyird şeirlərinin birində yazacaqdı: "Haqdan enən şərbəti içdik, əlhəmdülillah, Şol qudrət dənizini keçdik, əlhəmdülillah, Tapdığın tapusunda qul olduq qapısında, Yunus, miskin çiy idik, bişdik, əlhəmdülillah!..

Yaradıcılığının zirvələşən çağlarında təsəvvüf fəlsəfəsi meydanlarında ciddi ixtilaf yaradan "Ənəlhəqq" fəlsəfəsini bütünlüklə qəbul edən şair zaman-zaman: "Ətə, kəmiyə büründüm, Yunus deyə, göründüm", "Mən gəlmədim dava üçün, Mənim işim sevda üçün, Dostun evi könüllərdir, Könüllər yapmağa gəldim" kimi poetik himnlər söylədi.

Bu möhtəşəmin tək elə şeiriyyəti yox, özündən sonrakı azman qövmdaşlarından birinin sözü ("Mən bu cahana sığmazam") olmasın, məzarı da Turanasığmaz olub ki (Sarıköy, Qaraman, Bursa, Ağsaray-Rəşadiyə, Ünyə məkanları, Manisa-Kulanın Əmrə, Ərzurumun Dutçu kəndləri, Spartanın Gönən, Afyonkarahisarın Sandıqlı, Toqatın Niksar ilçələri, "Kirişçi Ata Məscidi"nin həyəti, Sivas yaxınlığında bir yolun üstü...), onlardan biri də bizim Qax rayonunun Oncallı kəndindəki Oğuz qəbiristanlığı. Sabiq Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycan səfərlərindən birində Oncallı kəndinə yollanaraq, Yunus Əmrənin (və bu "məsələ"də eyni taleli Tapdıq Əmrənin) məzarını ziyarət etməsi faktı bu böyük Türk ermişinə xalq sevgisinin bir təzahürü olan çoxsaylı "məzar əfsanələri" içərisindəki realllığı daha çox, Azərbaycan saldosuna meyllləndirir...

*Şəriət, təriqət yoldur - varana*
*Mərifət, Həqiqət ondan içəri.*
*Məni məndən sorma, məndə deyiləm,*
*Bir mən vardır məndə, məndən içəri...*

Deyirlər, Azərbaycanın millət şairi Bəxtiyar Vahabzadə bu laməkan və... "laməzar"ın bu şeirini beş-altı il sonra ikinci dəfə oxuyarkən, çox təəssüf-təəccüblənib ki, niyə bu misralara öz poetik münasibətini bildirməyib. Və yazıb:

*Hər gün qazılır çünki könüllərdə məzarı,*
*Otlarda, çiçəklərdə və güllərdə məzarı,*
*Əfsanəmi, gerçəkmi, bu insan necə insan,*
*Varlıq səsidir, qopmuş o, Türkün qopuzundan!..*

Böyük Türk dünyası türkcəsinə aid şeiriyyətin Anadolu qolu banilərindən biri, Ortaçağdan bəri ədəbiyyat-sənət seçkinləri və tənqidçilərinin "Tanrı səsi, könüllər sultanı", "pakisaf sufi", "İslam filosofu", "mütəfəkkir Türk ərəni", "təsəvvüf və xalq şairi" kimi deyimlərlə qiymətləndirdiyi, 750 illiyi UNESCO tərəfindən dünyəvi təntənə ilə qeyd olunan, 1992-ci ildə "Güldəstə" adlı kitabı (türkcədən dilimizə uyğunlaşdırılaraq) bizim "Yazıçı" nəşriyyatında çap edilən bu bənzərsiz Söz Adamının həyat-yaşam aləmi hələ də çoxçaları bir "qaranlıq"da qalmışsa da, dür-düşüncə, şeir-sənət dünyası -

### Aydından aydın...

Yəni, çoxbudaqlı Türk ədəbiyyatının binəbünövrə nümayəndələrindən sayılan, yalnız xalq və təkkə poeziyasına deyil, əruz və heca vəznlərində mükəmməl nümunələrilə divan şeirinə də təsir etmiş (və özü sanballı bir Divan yaratmış) bu böyük Aşiqin təxəllüsü ("Əmrə") də elə "aşiq"lik məna-məramını çalarlayır; Anadolu dialektində işlənən "imrəmək", "imrənmək" felləri hansısa bir canlıcansızı çox sevmək, qibtə etmək, həddən ziyadə istəmək anlamlarının cəmini ifadə edir. O bu ada xeyli tanıq-təyinlərdən sonra yetişmişdi: "Yunus", "Qul Yunus", "Aşıq Yunus", "Miskin Yunus", "Dərviş Yunus" və nəhayət, Yunus Əmrə. Yuxarıda, həyat-yaşam çizgilərini qara "qaranlıqlar" ifadəsilə "eskiz"lədiyim bu sənətkarla bağlı bir-birini zəncirvariləyən rəvayətlər, Anadolu məkanlı soydaşlarından biri demişkən; "Haqq Aşiqi mərtəbəsinə yüksəldən şeirləri" onun kimliyini bütün kamilliyilə bəyan edir.

Bu sözümə əlavə olaraq, həmin şeirlərin onu bütün dərinlik və incəliklərilə açmaladığını qeyd etməmək qeyri-mümkün!

Hər misrası Allah eşqi çağladan, insan sevgisi andıran, hər bəndinin alt-məna zatından üst-anlam qatına səpsərin duyğu çeşməsi qaynadan bu şair, öz dünyadaşlarına poetik ismarışlar da edirdi. Bu aqilə görə, bu dünya elə bir bazardır ki, hər kəs burada öz qanacaq-qabiliyyət vəsaitilə alver edib, "məzarevinə" dönür. İnsan həyatını "səhər çıxıb, axşam batan günəş"ə bənzədən Haqq aşiqi deyirdi:

*Ana rəhmindən gəldik bazara;*
*Bir kəfən aldıq, döndük məzara!*

Bu dahinin əksər misralarında Allaha eşq nuru oxucu-dinləyici qəlbinə gur çeşmələrtək püskürür. Məsələn, Haqq dünyaya fani dünyadan məlum "mal-mülksüz" köçümlə bağlı söylədiyi bu ruhtitrədici misralara baxaq:

*Yalançı dünyaya aşiq köçənlər,*
*Nə söylərlər, nə bir xəbər verərlər!*

*Kimisi bəzirgan, kimisi xoca,*
*Əcəl şərbətini içmək də güc a!*
*Kimi ağ saqqallı, kimi pir qoca,*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*

Bir çox təsəvvüfçülər kimi, Əmrə də bədənin fani, ruhun əbədi olduğunu bəyan edirdi yaradıcılığında. Bəzi gülünclərin "elmsiz şeirçi"lər sırasında xatırlayıb-güldüyü bu şair insanın xarakter xəmirinin də kainatın dörd (torpaq, su, hava, od) ünsüründən yarandığı inamında idi:

*Mənə axtar bu yolda*
*Mənə duyan könüllər,*
*Tən fanidir, can ölməz,*
*Ölsə - təklənər ölər...*

Əsasən heca vəznində yazıb-yaratmış bu şairin hətta əruz nümunələrində belə aşıq deyim-duyumları hiss edilir. Üslub baxımından, böyük xələfi Füzulinin "Məni candan usandırdı" qəzəlilə səsləşən nümunəsinə diqqət yetirək:

*Uyqudan gözüm oyandı,*
*oyandı - qana boyandı,*
*Yandı şol yürəgim, yandı,*
*neçin ağlarsın, bülbül, hey?*

Deyirlər, indinin minbir aşıqlı-şairli Anadolusunun yardan yanıqlı gəncləri səkkiz yüz il öncə yazılmış aşağıdakı misraları günü bu gün də dilə gətirirlər:

*Mən yürürüm yana-yana,*
*Eşq boyadı məni qana.*
*Nə aşiqəm, nə divana,*
*Gəl, gör məni eşq neynədi.*

*Miskin Yunus, biçarəyəm,*
*Başdan-ayağa yarəyəm,*
*Dost əlindən avarəyəm,*
*Gəl, gör məni eşq neynədi...*

Məzarı məkansız bu şairin Sözünün məkanı böyük ürəklər!

Və bir də qızıl mürəkkəbli qələmlər: "Allah eşqini, insan sevgisini, mərhəmət, ehtiram, ölüm, qəriblik kimi duyğuları onun qədər mənalı, dərin şəkildə işləmiş şair çox azdır", "Qiyməti özündən olan bu qızıl külçəsi - Yunus Əmrə yaradıcılığı bütün əti-qanıyla xalis Türk xəzinəsidir..."

Onun haqqında yazılmış onlarca monoqrafiya, yüzlərcə məqalə, xatirəsini əzizləyibəbədiləşdirən irili-xırdalı abidələr, elmi-mədəni mərkəzlər də öz yerində.

Ruhun şad olsun, özgür-özdilli xalqların müştərək ulu babalarından olan çox sevimliseçimlimiz!..

**Tahir Abbaslı**

## Barış Manço haqqında kitab çapdan çıxıb



Bakı Slavyan Universitetinin Azərbaycan filologiyası və jurnalistika fakültəsinin Jurnalistika kafedrasının professoru Etibar Babayevin Türk dünyasının məşhur sənətçisi Barış Mançoya həsr etdiyi "Barış körpüsü" kitabı çapdan çıxıb. Kitabda sənətçinin Azərbaycanda olarkən keçirdiyi görüşlər, müsahibələri, fotoşəkilləri və maraqlı xatirələri yer alıb.

İstanbula işgüzar səfərə gedən E.Babayev Barış Mançonun ev-muzeyində olub və kitabın ilk nüsxəsini muzeyə hədiyyə edib. Bununla bağlı Türkiyənin bir sıra xəbər portallarında yazılar yer alıb. Məqalələrdə E.Babayevin Barış Manço haqqında yazdığı kitabla yanaşı, müəllifin dostu barədə fikirlərinə də geniş yer ayrılıb: "Barışın dönəmində Türkiyədə Avropa ilə Asiyanı birləşdirən iki körpü vardı. Birincisi Boğaziçi körpüsü, ikincisi isə Fatih Sultan Mehmet körpüsü. Bir də canlı körpü vardı. Bu, Türkiyəni bütün dünya ilə birləşdirən Barış Manço körpüsü idi".




*Azərbaycan*

**17 mart 1905** - Şair, nasir, tərcüməçi Mikayıl Manaf oğlu Rzaquluzadə (1905 - 10.11.1984) anadan olub. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.



**17 mart 1919** - Görkəmli aktyor, rejissor Hüseyn Məmməd oğlu Ərəblinski (Xələfov; 1881-1919) qətlə yetirilib. Azərbaycanın professional teatr sənətinin banilərindən biridir. "Müsəlman artistləri" cəmiyyəti, "Nicat" teatr cəmiyyətində çalışıb. 1916-cı ildə "Neft və milyonlar səltənətində" filmində Lütfəli bəy rolunu oynayıb.

**17 mart 1932** - Fəlsəfə elmləri doktoru, Əməkdar elm xadimi Zümrüd Əliqulu qızı Quluzadə anadan olub. Hürufiliyin tarixi, Nizami, Nəsimi və Füzulinin fəlsəfi görüşlərinə dair tədqiqatların müəllifidir.

**18 mart 1916** - Şair, tərcüməçi Böyükağa Məmməd oğlu Qasımzadə (1916 - 29.8.1957) anadan olub. Rus ədəbiyyatından, M.Füzulinin "Yeddi cam" əsərini farscadan tərcümə edib.

**18 mart 1922** - Dramaturq Qeybulla İbadulla oğlu Rəsulov (1922 - 11.9.1988) Qax rayonunun İlisu kəndində doğulub. Pyesləri: "Günəşlə oyananlar", "Şəhərli oğlan", "Bir "Volqa" məhəbbət" və s.



**18 mart 1943** - Xalq yazıçısı Mövlud Süleymanlı (Balakişiyev) Ermənistan SSR-nin Kalinino rayonunun Qızıl Şəfəq kəndində doğulub. "Köç" romanı, povest, pyes və ssenarilərin müəllifidir. Azərbaycan Dövlət Radiosuna rəhbərlik edib.

**19 mart 1919** - Xalq artisti, məşhur xanəndə Hacıbaba Hüseynəli oğlu Hüseynov (1919 - 24.10.1993) anadan olub. Muğamatdan dərs deyib, xanəndələr yetişdirib. Çoxsaylı təsniflərin müəllifidir, istedadlı qəzəlxan kimi tanınıb.



**19 mart 1925** - Dövlət xadimi, yazıçı-publisist, maarifçi Nəriman Kərbəlayı Nəcəf oğlu Nərimanov (14.4.1870 - 1925) vəfat edib. Azərbaycanda sovet hökumətinin ilk rəhbəri olub. 1922-ci ildən mərkəzi hökumətdə (SSRİ MİK) işləyib və Moskvada müəmmalı şəkildə dünyasını dəyişib. "Nadanlıq", "Şamdan bəy", "Nadir şah", "Bahadır və Sona" və s. əsərlərin müəllifidir.

**19 mart 1994** - Xalq artisti, bəstəkar, cazmen Rafiq Babayev (31.3.1936 - 1994) Bakı metrosunda ("20 Yanvar" stansiyası) baş verən terror hadisəsində həlak olub. "Cəngi" folklor-caz kollektivini yaradıb, "Anlamaq istəyirəm", "Cin mikrorayonda" və s. filmlərə musiqi bəstələyib.

**20 mart** Novruzun ilk günüdür. Qədim dövrlərdən xalqımız Novruzu bərəkət və firavanlığın rəmzi kimi bayram edib. Sovet dövründə qoyulmuş qadağalar Azərbaycan müstəqillik əldə edəndən sonra aradan qaldırılıb, 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" qanunla Novruz dövlət bayramı kimi təsbit edilib.

**20 mart 1879** - Xalq artisti, görkəmli opera müğənnisi, aktyor, rejissor, pedaqoq Hüseynqulu Məlik oğlu Sarabski (Rzayev; 1879 - 16.2.1945) anadan olub. İlk milli operamız olan "Leyli və Məcnun"da Məcnun rolunun birinci və uzun illər əvəzsiz ifaçısı olub.



**20 mart 1899** - Böyük yazıçı-dramaturq Cəfər Qafar oğlu Cabbarlı (1899 - 31.12.1934) Xızı kəndində doğulub. Pyesləri: "Solğun çiçəklər", "Aydın", "Oqtay Eloğlu", "Od gəlini", "Sevil", "Almaz", "1905-ci ildə", "Yaşar" və s. Şeir və hekayələrin, milli kinomuzda ilk ssenarilərin ("Hacı Qara", "Sevil", "Almaz" filmləri) müəllifidir.

**20 mart 1912** - Azərbaycanın və Rusiyanın Xalq artisti, rejissor Ənvər Məcid oğlu Behbudov (1912-1998) anadan olub. Rusiyanın Ulyanovsk, Novosibirsk, Kazan, Rostov teatrlarında çalışıb. 60-70-ci illərdə Azərbaycan Opera və Balet, Rus Dram teatrlarının baş rejissoru olub.

**20 mart 1933** - Şair, publisist, dramaturq Kələntər Şıxkərim oğlu Kələntərli (1933-2012) Qusar rayonunun Sudur kəndində anadan olub.

*Dünya*

**17 mart 1856** - Polyak əsilli Rusiya rəssamı, dekorativ pannolar və freskalar müəllifi Mixail Aleksandroviç Vrubel (1856-1910) anadan olub.

**17 mart 1901** - Amerika kino bəstəkarı, dirijor, aranjimançı Alfred Nyuman (Alfred Newman; 1901-1970) anadan olub. 9 dəfə "Oskar" laureatı olub.

**17 mart 1926** - Alman yazıçısı Ziqfriq Lens (Siegfried Lenz) anadan olub. Əsərləri: "Çörək və tamaşa", "Alman dili dərsi" və s.

**17 mart 1938** - Tatar-başqırd əsilli məşhur balet artisti Rudolf Hametoviç Nuriyev (1938-1993) anadan olub. 1961-ci ildə SSRİ-dən Britaniyaya mühacirət edib.

**18 mart 1842** - Fransız şairi, simvolizmin banilərindən biri Stefan Mallarme (Stephane Mallarme; 1842-1898) anadan olub.



**18 mart 1844** - Rus bəstəkarı, dirijor, pedaqoq Nikolay Andreyeviç Rimski-Korsakov (1844-1908) anadan olub. "Sadko", "Qar qız", "Motsart və Salyeri", "Qızıl xoruz" operalarının, "Şəhrizad" simfonik süitasının müəllifidir.

**18 mart 1938** - Hind aktyoru, rejissor, prodüser Şaşi Kapur (Shashi Kapoor; 1938 - 4.12.2017) anadan olub. Rac Kapurun kiçik qardaşıdır. Məşhur filmləri: "Üçdişli", "Məhəbbət həyatdır" və s.

**18 mart 1959** - Fransız rejissoru, ssenarist Lük Besson (Luc Besson) anadan olub. "Leon", "Janna D'Ark" və s. filmlərə quruluş verib.

**19 mart 1895** - Görkəmli Ukrayna şairi, tərcüməçi, ədəbiyyatşünas Maksim Faddeyeviç Rılski (1895-1964) anadan olub.

**19 mart 1949** - Rusiyanın Xalq artisti, estrada müğənnisi Valeri Leontyev anadan olub.

**19 mart 1955** - Amerika aktyoru Brüs Uillis (Walter Bruce Willis) anadan olub. Filmləri: "Kriminal qiraət", "Beşinci element", "Altıncı hiss" və s.



**20 mart 1741** - Fransız heykəltəraşı Jan Antuan Hudon (Jean-Antoine Houdon, 1741-1828) anadan olub. Psixoloji portretlər ustası kimi tanınıb, Volter, Russo və s. məşhur simaların büstlərini yaradıb.

**20 mart 1828** - Norveç şairi, dramaturq Henrik İbsen (Henrik Johan Ibsen, 1828-1906) anadan olub. "Yeni Avropa dramı"nın yaradıcısı sayılır.

*Hazırladı: Vüqar Orxan*

# Xəzərdə sualtı arxeoloji ekspedisiyanın 50 illiyi qeyd olunub




**Martın 13-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində Xəzər dənizində ilk sualtı arxeoloji ekspedisiyanın 50 illiyinə həsr olunmuş elmi seminar keçirilib.**

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı yarım əsr əvvəl Xəzər akvatoriyasında genişmiqyaslı sualtı arxeoloji axtarışlar aparmış ekspedisiyanın fəaliyyəti, ekspedisiyanın rəhbəri Viktor Kvaçidzenin həyat və fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, 1968-ci ildə muzeyin elmi əməkdaşı, arxeoloq V.Kvaçidzenin rəhbərliyi ilə Xəzər dənizində sualtı ekspedisiya təşkil olunub. Muzeydə ekspedisiyaya həsr olunan xüsusi guşə təşkil edilib və orada su altından tapılmış arxeoloji materiallar yer alıb.

Muzeyin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nasir Quluzadə "Xəzər akvatoriyasında sualtı arxeoloji tədqiqatlar və Viktor Kvaçidze" mövzusunda məruzə ilə çıxış edib. Diqqətə çatdırılıb ki, sualtı tədqiqatlara hazırlıq məqsədilə V.Kvaçidze və ekspedisiyanın üzvü G.Ağayev DOSAAF-ın sualtı üzgüçülük klubunda, Moskva və Sankt-Peterburq şəhərlərində xüsusi təcrübə keçiblər.

V.Kvaçidzenin rəhbərlik etdiyi tədqiqat qrupu 1968-1987-ci illərdə Xəzərin Azərbaycan sahili boyunca və Plita Poqorelaya, Pavlov və Kür sualtı bankələrinin (quru relyef formasının qalığı), eləcə də Bulla, Oblivnoy, Səngi-Muğan, Böyükdaş və Kiçikdaş adalarının, Pirsaat silsiləsinin, Abşeronun Amburan burnunun (köhnə Bilgəh), Gürgan və s. sualtı abidələrin tədqiqi üçün arxeoloji ekspedisiyalar təşkil edib.

Çıxış edənlər müasir dövrdə bu sahənin inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

## AFİŞA 17-20 mart

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
**Nizami küçəsi 95**

| | | |
|---|---|---|
| 17 mart | C.Puççini - "Madame Butterfly" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı**
**Füzuli meydanı 1**

| | | |
|---|---|---|
| 19-20 mart | "Gəl, baharım, gəl, yazım" | 11.00, 13.00, 15.00, 17.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı**
**Zərifə Əliyeva küçəsi 8**

| | | |
|---|---|---|
| 17 mart | Ə.Səmədli - "Meşə çaqqalsız olmaz"<br>F.Sücəddinov, T.Vəliyeva - "Mən dəyərəm min cavana" | 12.00<br>19.00 |
| 18 mart | Rus xalq nağılı - "Qoğalın sərgüzəştləri"<br>Ü.Hacıbəyli - "Arşın mal alan" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı**
**Xaqani küçəsi 7**

| | | |
|---|---|---|
| 17 mart | A.Puşkin – "Çar Saltan, knyaz Qvidon və çariça Qu quşu haqqında nağıl"<br>Q.Səid – "Əli və Nino" | 12.00<br>19.00 |
| 18 mart | V.Reznikova – "Anam, atam və mən"<br>Y.Poddubnaya – "Kraliçanın son ehtirası" | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı**
**Nizami küçəsi 72**

| | | |
|---|---|---|
| 18-19 mart | E.Uspenski - "Çeburaşka" (premyera) | 12.00, 14.00, 16.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı**
**Neftçilər prospekti 36**

| | | |
|---|---|---|
| 17 mart | K.Ağayeva - "Göyçək Fatma"<br>T.Ağayev - "Qoçaq Əhməd" (rus dilində) | 12.00, 14.00<br>16.00 |
| 18 mart | Ə.Səmədli - "Cik-cik xanım"<br>Rus xalq nağılı - "Durna balığı" (rus dilində) | 12.00, 14.00<br>16.00 |
| 20 mart | M.Seyidzadə - "Cırtdan"<br>Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 12.00, 14.00<br>16.00 |

**Yuğ Dövlət Teatrı**
**Neftçilər prospekti 36 (Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 17 mart | "Naməlum Axundzadə" (M.F.Axundzadənin əsərləri əsasında) | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı**
**Azadlıq prospekti 10**

| | | |
|---|---|---|
| 17 mart | N.Rüstəmov - "Ağbığlılar" | 18.00 |
| 18 mart | B.Xanızadə - "Pantomim buketi" | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası**
**İstiqlaliyyət küçəsi 2**

| | | |
|---|---|---|
| 17 mart | R.Behbudov adına 2 saylı 11 illik musiqi məktəbinin konserti<br>Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri (bədii rəhbər Rauf Abdullayev) | 19.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı**
**R.Behbudov küçəsi 12**

| | | |
|---|---|---|
| 18 mart | "Fidan Hacıyevanın vokal musiqi məktəbi" şagirdlərinin konserti | 19.00 |

# Milli Kitabxanada bir gün

## Dövri mətbuat zalından reportaj



**Dünyada bütün kitabxanaların məqsədi birdir - insanları bilgi ilə təmin etmək. Tarixdən günümüzə kitabxanalar fondlarını zənginləşdirmək üçün həmişə rəqabət aparmış, ən qiymətli məxəzləri əldə etməyə çalışmışlar. Orta əsrlərdən üzü bəri görkəmli mütəfəkkirlərin əsərlərinin, şairlərin divanlarının İstanbul, London, Qahirə, Paris və s. şəhərlərin məşhur kitabxanalarında qorunması fikrimizi əsaslandırmağa yetər.**

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının da zəngin fondu var. Müxtəlif kitab təqdimatları, yubiley tədbirləri, sərgilərlə əlaqədar burada tez-tez olmuş, yeri gəldikcə kitabxananın fondlarından da yararlanmışıq. Bu dəfə məqsədimiz Milli Kitabxananın Oxuculara xidmət şöbəsi və dövri mətbuat zalının fəaliyyəti barədə söhbət açmaqdır.

### Səssizlik

Zala daxil olarkən diqqətimizi ilk cəlb edən oxucuların çoxluğuna rəğmən, buradakı səssizlikdir. Hər kəs sakitcə oturub özünə lazım olan qəzet və jurnalları vərəqləyir, qeydlər aparır. Zalda insanların rahat mütaliəsi üçün hər cür şərait yaradılıb.



Kitabxananın direktor müavini Ədibə İsmayılova bizi Biblioqrafiya və elektron informasiya şöbəsinin müdiri Könül Kərimova ilə tanış edir. Könül xanımla otaqları və zalları gəzməyə başlayırıq. Bələdçimiz bildirir ki, Oxuculara xidmət şöbəsi 1923-cü ildə, yəni kitabxana təşkil edilərkən qiraət zalı kimi fəaliyyətə başlayıb. 1928-ci ildən şöbə yaradılıb: "Dövri mətbuat zalında oxucularımızın sayı həmişə çox olur. Onlar həm dövri mətbuatın elektron versiyasından, həm də orijinal nüsxələrindən ənənəvi üsulla istifadə edə bilirlər. Ölkəmizdə nəşr olunan bütün qəzet və jurnalların arxiv fondu Milli Kitabxanadadır. Milli mətbuatımızın yarandığı 1875-ci ildən bu yana 91 adda qəzetin, eləcə də jurnalların orijinal nüsxəsi və surəti arxiv fondumuzda saxlanılır. Bu gün ölkədə nəşr olunan bütün mətbu nümunələr kitabxanaya daxil olur. Oxucu istədiyi nüsxəni sifariş verir və qəzet, jurnal fonddan çıxarılaraq dövri mətbuat zalına gətirilir. Bu gün əksər oxucular elektron versiyadan istifadə edirlər".



### İl ərzində 170 minədək oxucu

Dövri mətbuat zalında xarici ölkələrdə nəşr olunan mətbu nümunələrə də rast gəlirik. Həmsöhbətim bildirir ki, Milli Kitabxana beynəlxalq kitab mübadiləsi də həyata keçirir. Xarici ölkələrin milli kitabxanaları ilə bağlanmış memorandumlara əsasən, qarşılıqlı mübadilə nəticəsində fond daha da zənginləşir: "Gün ərzində dövri mətbuat zalına 400-ə yaxın oxucu müraciət edir. Virtual oxucularımızın sayı da bir o qədərdir. Onu da qeyd edim ki, kitabxanada dövri mətbuatda dərc olunan məqalələrin analitik məlumat bazası da yaradılmışdır ki, burada məqalələrin biblioqrafik təsviri ilə yanaşı, onların tam mətnini də oxumaq mümkündür".

Öyrənirik ki, Oxuculara xidmət şöbəsi kitabxanaya müraciət edənlərə göstərilən xidmətin 80 faizini həyata keçirir. Şöbənin oxu zalları ildə ümumilikdə 150-170 min oxucu qəbul edə bilir. Xidmət şöbəsi oxuculara dövri mətbuat, tələbə gənclərə xidmət, humanitar, dəqiq və texniki elmlər zallarında, elektron resurslardan istifadənin təşkili, lokal şəbəkədən istifadə üzrə oxu zalı bölmələrində və internet oxu zalında xidmətləri özündə birləşdirir. Zallarda mütəmadi olaraq yeni alınmış ədəbiyyat, eləcə də əlamətdar və tarixi günlərə dair kitab və dövri mətbuat sərgiləri təşkil edilir.

Dövri mətbuat zalında 100-dən artıq oxucunun eyni anda xidmətlərdən istifadə etməsinə imkan var. Zalın yardımçı fondunda son 5 ilin jurnal və qəzetləri saxlanılır. Burada hər yaşdan oxucularla qarşılaşırıq. Bu arada bəzi oxucularla söhbət imkanımız yaranır. Fidan Quliyeva Bakı Dövlət Universitetinin magistrantıdır. Dövri mətbuat zalının xidmətlərindən mütəmadi istifadə etdiyini deyir. O, burada yaradılan şəraitdən də razılıq edir. Eldar Abbasov isə təqaüddə olan müəllimdir. Asudə vaxtlarında kitabxanaya tez-tez baş çəkdiyini, keçmişi vərəqləməyi çox sevdiyini deyir. Bildirir ki, ötən illərin qəzetlərində yer alan məlumatlar yeri gələndə ona çox gərək olur.

Dövri mətbuat zalının sükutunu bir neçə dəqiqəliyə pozsaq da, oxucuların xidmətində dayanan kitabxana əməkdaşlarına işlərində uğurlar arzulayır, elm və bilik ocağından xoş hislərlə ayrılırıq.

**Lalə Azəri**

# Təbrizdən Parisədək ömür və sənət yolu

**XX əsrin ikinci yarısında İran ədəbiyyatında özünəməxsus dəst-xətti ilə seçilən müəlliflər arasında Qulamhüseyn Saidi də var. O, İran Yazıçılar Cəmiyyətinin yaradılmasında yaxından iştirak edib.**

Qulamhüseyn Əliəsgər oğlu Saidi 4 yanvar 1936-cı ildə Təbriz şəhərində anadan olub. 1945-ci ildə Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Milli Hökumət qurulur. Soydaşlarımızın ana dilində danışmaq qadağası aradan qaldırılır. Məktəblərdə dərslər Azərbaycan türkcəsində keçilir, qəzetlər ana dilində nəşr edilir. Lakin bu sevincli günlərin ömrü çox az olur. İmperialist güclərin təsiri ilə şah rejimi Milli Hökuməti devirir...

Ədəbi yaradıcılığa maraq göstərən Q.Saidi 1951-ci ildə həbs olunur. Lakin fəaliyyətində qanunazidd bir şey olmadığı üçün azad edilir. 20 yaşında Təbriz Universitetinin Tibb fakültəsinə qəbul olunur. Tələbə ikən inqilab əhval-ruhiyyəli müəlliflərdən Səməd Behrəngi, Behruz Dehqani, Məftun Əmini, Kazım Səadəti və başqaları ilə dost olur. 1961-ci ildə ali təhsilini başa vurur, psixoloq ixtisasına yiyələnir.

Tehranda hərbi xidmətdə olarkən əsgərlərin həyatından bəhs edən üç hekayə yazır. Əsgəri xidmətini başa vurduqdan sonra Tehran şəhərində qalır. "Dilguşə" adlı tibb mərkəzi açır. Tədricən səhiyyə ocağı Tehranın ədəbi, fəlsəfi və siyasi fikir adamlarının toplantı yerinə çevrilir.



Araşdırmalarda qeyd edilir ki, ədəbiyyata şeirlə gələn Q.Saidi publisistika, nəsr, dramaturgiya və tərcümə sahələrində də qələmini sınayır. 1965-1975-ci illərdə pyes, hekayə, roman yazır və tərcümələr edir. "Keyhan", "İttilaat", "Ayəndeqan", "Azadi", "Rəhayi" və s. qəzet və jurnallarda məqalələri dərc olunur. Özü isə "Əlifba" adlı jurnal nəşr etdirir.

Calal Al-Əhməd 1964-cü ildə onu rəhbərlik etdiyi İranın Tədqiqat və İctimai Araşdırmalar Mərkəzində çalışmağa dəvət edir. Buradakı işi ilə bağlı səfərlərə çıxır. Xarici ölkələrdə olur, səfər təəssüratlarını "İlxıçı", "Qaradağ", "Körfəz kənarında xoş bir kölgə", "Sadə havaşünaslıq", "Ah-nələ" adı altında kitabça şəklində çap etdirir. "Qorxu və səksəkə", "Dəndil" və s. hekayələrində dastanlardan, mifik yaddaşdan peşəkarlıqla bəhrələnir. Hekayələri 1965-ci ildə Tehranda "Bəyəldə yas" adı altında çap edilir. Kitab İranın xüsusi xidmət orqanlarının diqqətini çəkir. Onları kitabdakı hekayələrin yeni üslubu deyil, mövzusu daha çox narahat edir. Gənc yazıçının cəmiyyətdəki nöqsanları tənqid etməsi dövlət əleyhinə aparılan təbliğat hesab edilir. Uzun sürən işgəncəli istintaq nəticəsiz başa çatsa da, bu ədalətsizlik yazıçını bərk sarsıdır.

Q.Saidinin pyesləri də oxucuların marağına səbəb olur. Çünki o, bu dram əsərlərini pantomima üslubunda qələmə almışdı. Səhnələşdirilən bu əsərlər ölkənin böyük şəhərlərinin teatrlarında oynanılır. Tənqidçilərin fikrincə, müəllifin bədii əsərləri arasında ən uğurluları pantomima janrında yazdıqları olub. O, şah rejiminin ölkədəki xalqlara tutduğu divanı pantomima vasitəsilə verməyə çalışıb. Q.Saidi sonralar yazırdı ki, əhalisinin əksəriyyəti ana dilindən məhrum olan xalqın danışığı bir növ pantomima oyununa bənzəyir.

Müəllifin "Vərzil qolu çomaqlıları" pyesi əsasında rejissor Cəfər Vali film çəkir. Daha sonra İranın məşhur rejissoru Dariyuş Mehrcuyi "Bəyəldə yas" hekayələr toplusu əsasında "Öküz" adlı film ekranlaşdırır. Bu film İranın kino sənətində əsaslı dəyişikliyə səbəb olur. "Öküz" filmindən sonra İranda ictimai-siyasi məzmunlu filmlərin sayı artır.

İranda şah rejiminə qarşı mübarizə başlananda Q.Saidi onu alqışlayanlardan və öndə gedənlərdən olur. 1979-cu ildə İranda islam inqilabı qələbə çalır. Lakin inqilab onun ümidlərini doğrultmur. Q.Saidi 1982-ci ildə Fransaya gedir. Parisdə olarkən Bədr Lənkərani adlı bir xanımla ailə qurur. Burada "Otello qəribə məmləkətdə", "Nurlu qəlblər", "Doktor Əkbər" və "Renessans" ssenarilərini və rejissor D.Mehrcuyi ilə birlikdə "Ev təmiz olmalıdır" hekayəsi əsasında "Molus-Korpus" ssenarisini yazır. Parisdə "Şəhərdə bir qərib", "Top", "Gülərüzlü tatar" adlı romanlarını qələmə alır, "Ölüm yeri", "Sınıqçı" əsərlərini isə tamamlaya bilmir.

Qulamhüseyn Saidi 23 noyabr 1985-ci ildə, 49 yaşında Parisdə dünyasını dəyişib, Per-Laşez qəbiristanlığında dəfn edilib.

**Savalan Fərəcov**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi
16 MART 2018 21 [1511]
Mədəniyyət
www.medeniyyet.az



# “Rənglər aləmində”

## Müəllim və şagirdinin əsərləri eyni sərgidə

Martın 13-də “Gallery 1969” sərgi salonunda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimi, gənc rəssam Aysel Əmirovanın və onun şagirdi, səkkizyaşlı Fatimə Qəribovanın əsərlərindən ibarət “Rənglər aləmində” adlı sərgi açılıb.

Sərgidə müəllim və şagirdinin ümumilikdə 50 sənət əsəri yer alıb.

Açılış mərasimində çıxış edən Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəali İbrahimov bildirib ki, məna və məzmun baxımından olduqca maraqlı olan bu rəsmlər müəllim və şagirdinin incəsənət duyumundan, sənətə sevgisindən xəbər verir. Rəssamları sərgi münasibətilə təbrik edən Ağəali İbrahimov onlara yaradıcılıq uğurları arzulayıb.

Hər kəsə minnətdarlığını bildirən Aysel Əmirova sərgidə nümayiş etdirilən əsərlərin məziyyətindən söz açıb. Qeyd edib ki, sərgidə onun 5, Fatimənin isə 45 rəsm əsəri yer alıb.

Sonra qonaqlar sərgi ilə tanış olublar. Sərgi martın 15-də başa çatıb.

# “Dərələrdən yel kimi...”



**Martın 13-də “Nur Art House” sənət ocağı və “Azərbaycan xalçaçıları” İctimai Birliyi Yel çərşənbəsi münasibətilə “Dərələrdən yel kimi...” adlı tədbir keçirdi.**

Bayram tədbirini ictimai birliyin sədri, professor Röya Tağıyeva açaraq günün önəmindən danışdı, qonaqları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi.

Birliyin idarə heyətinin katibi Gülşən Hüseynovanın “Azərbaycan xalçalarında Novruz adət-ənənələri” və “Yel çərşənbəsinin xalçalarımızda rəmzi - bərabərtərəfli xaç” mövzularında söhbəti maraqla qarşılandı.

Ölkəmizdə səfərdə olan xarici qonaqların da qatıldığı tədbirdə memar, modelyer-rəssam, “Mədəniyyətlərin Təbliği və Xalq Yaradıcılığına Dəstək” İB-nin sədri Laləndar Novruzovanın bərpa etdiyi milli geyimlərdən ibarət dəfilə nümayiş olundu.

“Azərbaycan xalçaçıları” İB-nin üzvü, xoreoqraf, M.S.Ordubadinin xatirə muzeyinin baş mühafizi Rasimə Əhmədovanın quruluş verdiyi milli rəqslər isə hər kəsdə bayram ovqatı yaratdı.

Rəssam Ülkər Hacıyevanın milli gəlincikləri, bədii tikmə ustaları Elmira və Hökumə Qasımovaların əl işləri, tanınmış xalçaçı rəssam Eldar Hacıyevin xalçaları və rəngkarlıq əsərləri ilə tanışlıq iştirakçıların yaddaşında gözəl duyğularla qaldı.

**S.Qaliboğlu**




# İslamabadda Novruz şənliyi

**Azərbaycanın Pakistandakı hərbi attaşe aparatı İslamabad şəhərindəki “Serena” hotelində Novruz şənliyi təşkil edib.**

Tədbirdə Pakistan Silahlı Qüvvələrinin yüksək rütbəli zabitlərinin, bu ölkədə akkreditə olunmuş hərbi attaşelərin xanımları, ictimai işdə fəal olan qadınlar, eləcə də Pakistanda yaşayan azərbaycanlı xanımlar iştirak ediblər. Qonaqlara Azərbaycanın milli qadın geyimləri nümayiş etdirilib, Novruz bayramının adət-ənənələrindən söhbət açılıb.

İştirakçılar Azərbaycanın milli mətbəxinə aid yeməklərə qonaq edilib, onların hazırlanması qaydaları haqqında məlumat verilib.

Xanım qonaqlar Novruz ənənələrinə uyğun boyanmış yumurta döyüşdürüb, qaliblərə Azərbaycanın milli suvenirləri təqdim edilib. Xanımlar milli rəqslərimizi ifa edib, yallı gediblər.

Tədbirin keçirildiyi salonda Azərbaycanın turizm potensialını özündə əks etdirən video-çarxlar nümayiş olunub və milli musiqimiz səslənib.

# Hoteldə “Art Gecələr”

Martın 13-də “Pullman Baku” (keçmiş “Kempinski Badamdar”) hotelində “Pullman Art Gecələri” tədbirinin açılışı keçirilib.

Tədbirlər silsiləsi dünya üzrə Pullman brendinə məxsus hotellərin incəsənətlə bağlılığını nümayiş etdirmək məqsədi daşıyır. Bu imkan muzeyləri gəzməyə boş vaxtı olmayan qonaqlara hotelin içində incəsənət nümunələri ilə tanış olmaq üçün yaradılıb.

“Pullman Art Gecələri” çərçivəsində Azərbaycanın məşhur avanqardist rəssamı Cavad Mircavadovun və onun həyat yoldaşı Rübabə Mircavadovanın sərgisi keçirilib.

Qeyd edək ki, Rübabə Mircavadova ədəbiyyat və incəsənət sahəsində həyata keçirdiyi işlərə görə "Şevalye" fransız ordeni ilə təltif olunub.



**Baş redaktor:**
Vüqar Əliyev

Qəzet 1991-ci ildən çıxır.

**Ünvanımız:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Tel.:** (012) 431-57-72; 431-28-79; 430-16-79
**Tel/faks:** (012) 431-28-79;
**E-mail:** qazet@medeniyyet.az

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “B-Z” mətbəəsində çap olunmuşdur.

Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə olunur.

KAPİTAL BANKın
Yasamal filialı kod: 200037
VÖEN 9900003611
M/h AZ37NABZ01350100000000001944
SWIFT BIK AIIBAZ2X
H/h AZ98AIIB33080019443300232103
VÖEN 1300338641
Lisenziya №AB 022279
İndeks 0187

**Buraxılışa məsul:**
Fariz Yunisli

**Tiraj:** 5215

*Materiallardakı faktlara görə müəlliflər cavabdehdir.*